**ADA UNİVERSİTETİ**

**TƏHSİL FAKÜLTƏSİ**

**Ali təhsil müəssisələrində təhsil alan I kurs tələbələrinin universitet seçiminə təsir edən amillər: Cənub bölgəsi nümunəsi**

Xanım Lətifova

ADA Universiteti

Magistr dissertasiyası

2024

ADA UNİVERSİTETİ

Xanım Lətifovanın

MAGİSTRLİK DİSSERTASİYASI

TƏSDİQ EDİLMİŞDİR:

Elmi rəhbər: Dr. Könül Abaslı ____________

Komitə üzvü: Dr. Elza Səmədli ____________

Komitə üzvü: Dr. Abbas Abbasov ____________

Təhsil Fakültəsinin Dekanı: Dr. Ülviyyə Mikayılova ____________

Tarix: 30.05.2024

# HƏQİQİLİK BƏYANATI

Mən ADA-nın plagiatla bağlı siyasəti ilə tanış olmuşam və təsdiq edirəm ki, "Ali təhsil müəssisələrində təhsil alan 1-ci kurs tələbələrinin universitet seçiminə təsir edən amillər: Cənub bölgəsi nümunəsi" adlı dissertasiyanın məzmunu mənim şəxsi işimdir və heç bir təsdiq olunmamış əsəri ehtiva etmir.

Bununla bildirirəm ki, ADA Universitetində magistratura pilləsi üçün təqdim etdiyim bu magistr dissertasiyası, ilk araşdırmam və nailiyyətimdir, heç bir dərəcə və ya imtahan üçün təqdim olunmayıb.

İmza: ___________

Tarix: ___________

Müəlliflik hüququ 2024 Xanım Lətifova tərəfindən.

Bütün hüquqlar qorunur.

# MİNNƏTDARLIQ

Bu tədqiqatı aparmaqda və başa çatdırmaqda mənə kömək edən elmi rəhbərim, Dr. Könül Abaslıya dərin təşəkkürümü bildirirəm. Onun proses boyunca səbrli davranışı, perspektivləri və tövsiyələri bu magistr dissertasiyasının bütün mərhələlərində mənə kömək etdi. Ona dissertasiyamı yazmaq və özümü inkişaf etdirmək üçün davamlı dəstəyinə və verdiyi motivasiyaya görə minnətdaram. Könül Abaslı öz şəxsi nümunəsi ilə layiqli tədqiqatçının, alimin və insanın necə olmalı olduğunu mənə nümunə göstərdi.

Komissiya üzvlərim Dr. Elza Səmədli və Dr. Abbas Abbasova magistr dissertasiyamı təkmilləşdirmək üçün verdiyi dəyərli rəy və təkliflərə, eləcə də proqram zamanı apardıqları kurslara görə səmimi təşəkkürümü bildirirəm. Dissertasiya Komissiyasının hər bir üzvü mənə kifayət qədər şəxsi və peşəkar yardım, eləcə də elmi tədqiqatlar və ümumilikdə həyat haqqında zəngin biliklər verdi.

Bundan əlavə, Təhsil Fakültəsinin dekanı, Dr. Ülviyyə Mikayılovaya xüsusi təşəkkürümü bildirmək istəyirəm. O, bu müddət ərzində mənimlə zəngin təcrübəsini bölüşdü və bu tezisin yazılmasında mənə mühüm tövsiyələrini verdi.

Həmçinin Dr. Vəfa Yunusovaya, Səidə Nəbiyevaya, Natella Tarverdiyevaya, Kamal Musayeva və digər ADA əməkdaşlarına da bu prosesdə davamlı kömək göstərdikləri üçün təşəkkür etmək istəyirəm.

Sonda isə sevgisi və dəstəyi ilə hər zaman  yanımda olan ailəmə təşəkkür etmək istəyirəm.

**Xülasə**

Bu tədqiqatda ali təhsil müəssisələrində təhsil alan kurs I tələbələrinin universitet seçiminə təsir edən amillər araşdırılmışdır. Tədqiqat kəmiyyət metodologiyası daxilində istifadə edilən anket sorğuları vasitəsilə aparılmışdır. Tədqiqat çərçivəsində data toplamaq üçün mövcud ədəbiyyat təhlil olunaraq, 2 bölmədən və 5 ballıq Likert şkalasında formasında 22 maddədən ibarət sorğu aləti hazırlanmışdır. Cənub bölgəsində fəaliyyət göstərən iki ali təhsil müəssisəsində təhsil alan 322 nəfər I kurs tələbəsindən ibarət nümunəyə tətbiq edilən anket sorğuları nəticəsində əldə edilən data t-testi və One-way Anova vasitəsilə analiz edilmişdir. Tədqiqat nəticəsində tələbə qavrayışlarına görə universitet seçimində təsirli və ədədi göstəricisi ən yüksək olan ölçünün universitetin prestiji və universitet haqqında məlumat mənbələrinin olduğu müəyyən edilib. Tədqiqatda tələbələrin demoqrafik göstəriciləri olan cins, ailənin aylıq gəliri və tələbənin yaşadığı yer kimi göstəricilərin də universitet seçimində təsirinin olub-olmaması müəyyənləşdirilmişdir.

*Açar sözlər*: universitet, birinci kurs tələbələri, universitet seçimi, amillər, tələbələrin seçimi, Cənub bölgəsi

**Mündəricat**

**Mündəricat**......6

**1. Giriş**......8

*1.1 Tədqiqatın əhəmiyyəti*......8

*1.2 Tədqiqatın yeniliyi*......9

*1.2 Tədqiqatın məqsədi*......10

**2. Ədəbiyyat icmalı**......11

*2.1 Universitet seçiminə təsir edən əsas amillər*......11

*2.2 Universitetin akademik reputasiyası*......22

*2.3 Universitetin coğrafi yerləşməsi*......23

*2.4 Məlumatlılıq*......24

*2.5 İmkanlar*......26

*2.6 Universitet kampusu*......27

*2.7 İqtisadiyyat*......27

*2.8 Akademik proqramların müxtəlifliyi və iş tapmaq imkanları*......28

*2.9 Universitet seçimi modelləri*......29

**3. Metodologiya**......31

*3.1 Tədqiqatın metodu*...................31

*3.2 Populyasiya və nümunə qrup*...................31

*3.3 Data toplama aləti*...................33

*3.4 Ölçmə alətinin pilot tətbiqetmə mərhələsi*...................34

*3.5 Datanın toplanması prosesi*...................34

*3.6 Datanın analizi*...................34

**4. Nəticələr**...................34

*4.1 Normallıq testi nəticələri*...................34

*4.2 Tələbələrin universitet seçiminə təsir edən amillərin təhlili*...................35

*4.3 Tələbələrin seçiminə təsir edən amillərin cins dəyişkəni baxımından statistik olaraq əhəmiyyətli bir fərqlilik göstərib-göstərmədiyinə dair tapıntılar və müzakirəsi* ...................36

*4.4 Tələbələrin universitet seçiminə təsir edən amillərin ailənin aylıq gəliri dəyişkəni baxımından statistiki olaraq əhəmiyyətli bir fərqlilik göstərib-göstərmədiyinə dair tapıntılar və müzakirəsi*...................37

*4.5 Tələbələrin universitet seçiminə təsir edən amillərin yaşayış yeri dəyişkəni baxımından statistiki olaraq əhəmiyyətli bir fərqlilik göstərib-göstərmədiyinə dair tapıntılar və müzakirəsi*
...................39

**5. Nəticə və müzakirə**...................40

*5.1 Nəticə*......................................................................................................................40

*5.2 Müzakirə*.................................................................................................................41

*5.3 Tövsiyə*....................................................................................................................43

*5.4 Məhdudiyyətlər …………………………………………………………………………….…46*

**6. Əlavələr**........................................................................................................................54

7. Əlavə A: Tədqiqat aparmaq üçün əldə edilən icazə məktubları...............................................54

8. Əlavə B: Tədqiqat aparmaq üçün istifadə edilən data toplama aləti........................................57

**Ali təhsil müəssisələrində təhsil alan I kurs tələbələrinin universitet seçiminə təsir edən amillər: Cənub bölgəsi nümunəsi**

## 1.Giriş

### *1.1 Tədqiqatın əhəmiyyəti*

Universitet seçiminin hər bir insanın həyatında ən mühüm mərhələlərdən biridir, çünki bu seçim insanların gələcək karyeralarını formalaşdırır və bütün həyatına böyük təsir göstərir. Belə ki, hər bir tələbə universitet planlarını qurarkən qərarsızlıqlarla qarşılaşır və bir çox amillərin təsiri ilə oxuyacağı ali təhsil müəssisəsini seçir. Perna (2006) qeyd edir ki, tələbələrin təhsil alacaqları universitetləri seçmək qərarlarına təsir edən amillər tələbədən tələbəyə dəyişə bilir. Bu səbəbdən də tələbələrin universitet seçiminə təsir edən amillər müxtəlif ola bilir. Məlumdur ki, universitetlər təkcə öyrənmə mədəniyyəti, institusional uyğunlaşma təmin etmir, həm də özlərini öz bölgələrinə, regionlarına faydalı ola biləcək şəkildə formalaşdırırlar. Belə bir missiya çərçivəsində universitetlər özlərinə yaxşı vizyon yaratmalıdırlar. Bu vizyonu formalaşdırmaq, digər universitetlərlə rəqabət edə bilmək üçün bu gün ali təhsil müəssisələri tələbələrin hansı amillərdən təsirlənərək oxuduqları universitetləri seçmələrini bilməlidir. Bu gün rəqabətli ali təhsil dünyasında hər bir universitet özünə daha çox tələbə cəlb etmək istəyir. Universitetlərin hər biri tələbə qəbulunu daha da artırmaq üçün müəyyən strategiyalar həyata keçirir. Bu strategiyalar müəyyən edilərkən universitetin reputasiyası, təhsilin keyfiyyəti, akademik və fiziki infrastrukturu, sosial fəaliyyətləri ilə yerləşdiyi əyalətə, regiona təsiri də nəzərdən qaçmamalıdır. Çünki, bütün bu amillər və başqaları tələbələrin universitet seçiminə təsir edə biləcək amillərdir. Ali təhsil müəssisəsini seçməklə bağlı tələbələrin qərarında iştirak edən müxtəlif amillərin başa düşülməsi, potensial tələbələri cəlb etmək üçün effektiv marketinq və qəbul strategiyalarının formalaşdırılması və idarə olunmasının açarıdır. Pero (2015) qeyd edir ki, hər bir ali təhsil müəssisəsi tələbə cəlb etməkdə maraqlıdır, lakin tələbələrin universiteti seçməsinə təsir edən amillər haqqında məlumatları çox zaman olmur. Bu səbəbdən də tələbələrin universitet seçiminə

hansı amillərin təsir etdiyi istiqamətində tədqiqatların aparılması hər bir ali təhsil müəssisəsi üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, tələbələrin universitet seçiminə təsir edən amillərin öyrənilməsi ümumi olaraq universitetlər üçün aşağıdakı səbəblərə görə əhəmiyyətlidir:

- Bir universitetə tələbənin konkret bir ali təhsil müəssisəni niyə seçdiyinə dair data təqdim edir;
- Belə tədqiqatlardan əldə edilən məlumatlar universitetlərə öz marketinq planlarını tərtib etməkdə mühum rol oynayır;
- Əldə olunan data tələbələrin gözləntilərini qarşılayacaq, tələbə qəbulu təcrübəsini yaxşılaşdırmaq üçün həyata keçirilə biləcək strategiyaların hazırlanmasında istifadə edilə bilir;

*1.2 Tədqiqatın yeniliyi*

Universitet seçimi prosesi asan bir proses deyil, bu seçimə təsir edən amillərin müxtəlifliyi olduqca böyükdür: institusional xüsusiyyətlər, şəxsi amillər, başqalarının təsiri ilə bağlı amillər və s. bu seçimə təsir edə bilir. Tədqiqatçılar öz çoxsaylı tədqiqatlarında müxtəlif kontekstlərdə universitet seçiminə təsir edən amillər aşkar ediblər. Bu amillər Krampf və Heinlein (1981), Champan (1981), Hooley və Lynch (1981), Kallio (1995), Joseph və Joseph (2000), Soutar və Turner (2002), Hoyt və Brown (2003), Kalpaklıoğlu və Turemez (2010), Çatı və digərləri (2016) və s. tərəfindən aparılan tədqiqatlarda müxtəlif başlıqlarla qeyd olunur: universitetin akademik reputasiyası, universitetin coğrafi yerləşməsi, üstünlük verilən ixtisasların mövcudluğu və illik təhsil haqqı, təklif olunan kursların müxtəlifliyi, kampusdakı sosial mühit və s. Müxtəlif illərdə aparılan bu tədqiqatların əksəriyyətində spesifik olaraq universitetin təhsil haqqının, reputasiyasının, qəbul imtahanında toplanına balın, başqalarının təsirinin tələbələrin seçiminə təsiri araşdırılıb. Bu tədqiqatda isə Cənub bölgəsində fəaliyyət göstərən iki ali təhsil müəssisəsində təhsil alan birinci kurs tələbələrinin seçiminə universitetin prestijinin, coğrafi yerləşməsinin, kampusunun, tələbənin universitet barəsində məlumatlı olmasının nə dərəcədə təsir etdiyi araşdırılacaqdır.

### *1.3 Tədqiqatın məqsədi*

Bu gün Azərbaycanda 40 dövlət və 11 özəl olmaqla ümumilikdə 51 ali təhsil müəssisəsi fəaliyyət göstərməkdədir (Dövlət Statistika Komitəsi, 2023). Hər il minlərlə abituriyent qəbul imtahanlarında iştirak edərək, müvafiq bal toplayır və müxtəlif ali təhsil müəssisələrinə qəbul olur. Dövlət İmtahan Mərkəzi (2023) təqdim etdiyi statistikaya əsasən, Azərbaycanda 2022-2023-cü tədris ilində 51941 nəfər müxtəlif ali təhsil müəssisəsinə qəbul olmuşdur. Ali təhsil müəssisəsinə qəbul olan 51941 nəfərdən 1581 nəfəri Cənub bölgəsində fəaliyyət göstərən universitetlərə/filiallara qəbul olmuşdur. Ali təhsil müəssisələrində təhsil alan 1-ci kurs tələbələrinin universitet seçiminə təsir edən amillər istiqamətində tədqiqatın aparılmasında məqsəd bütov ölkə miqyasında olmasa belə Cənub bölgəsində fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil alan birinci kurs tələbələrinin universitet seçiminə təsir edən amilləri müəyyənləşdirməkdir. Belə ki, kəmiyyət metodologiyası ilə aparılacaq tədqiqatda müvafiq bölgədə fəaliyyət göstərən iki ali təhsil müəssisəsində təhsil alan 1-ci kurs tələbələrinin region universitetlərini seçmələrinə hansı amillərin təsir etdiyini müəyyələnləşdiriləcəkdir.

### *1.4 Tədqiqat sualları*

Bu tədqiqat aşağıdaki tədqiqat suallarına cavab axtaracaqdır:

1. Cənub bölgəsində fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil alan 1-ci kurs tələbələrinin universitet seçiminə daha çox təsir edən amillər hansılardır?
2. Tələbələrin seçiminə təsir edən amillər onların: cinsi; ailənin aylıq gəliri və tələbənin yaşayış yeri kimi göstəricilər baxımından statistik olaraq əhəmiyyətli bir fərqlilik daşıyırmı?

## 2. Ədəbiyyat icmalı

### *2.1 Universitet seçiminə təsir edən əsas amillər*

Tarix boyu təhsil dünya miqyasında xalqların inkişafında və tərəqqisində böyük rol oynamışdır. Təhsilin bütün formaları kimi ali təhsil xalqların iqtisadi inkişafı və böyüməsi, insan resurslarının inkişafında mühüm yer tutur ( Briggs & Wilson, 2007). Müəyyən bir ali təhsil müəssisəsini seçmək qərarı fərdin həyatında son dərəcə vacibdir, çünki universitet illərində onun gələcək karyerası qurulur. Hər bir fərd üçün müxtəlif alternativlər arasında seçim etmək vacib, lakin çətin bir prosesdir. Çünki alternativlərdən birini seçmək digərlərindən imtina etmək deməkdir (Akar, 2012). Qeyd etmək lazımdır ki, bütün dünyada ali təhsil müəssisələri getdikcə artan rəqabətli bazarda mövqe tutmaq və daha çox tələbə cəlb etmək zərurəti ilə qarşılaşırlar. Universitetlər tələbələri cəlb etməkdə maraqlıdırlar, lakin onlar adətən tələbələrin universiteti hansı səbəblərdən ötrü seçdikləri ilə bağlı məlumatlara malik deyillər. Ali təhsildə artan rəqabətlə universitetlər hər il kifayət qədər tələbə cəlb etmək problemi ilə üzləşirlər və buna görə də tələbə seçiminə nəyin təsir etdiyini başa düşmək çox vacibdir (Conston, 2010). Hər bir ali təhsil müəssisəsi fəaliyyətlərini optimallaşdıra bilmək üçün onlar tələbələrin oxuduqları ali təhsil müəssisəsini seçmələrinə hansı amillərin təsir etdiyi bilməlidir. Universitet seçiminə təsir edən amillərin öyrənilməsi ali təhsil sektorunun çox mühüm aspektidir və bu, təhsil müəssisələrinə, eləcə də onların bütün maraqlı tərəflərinə əhəmiyyətli təsir göstərir ( Echabi & Hajri, 2018). Bütün dünyada ali təhsil sistemlərinin idarə olunması müxtəlif illər ərzində çoxlu dəyişikliklərə məruz qalmışdır. Son illərdə isə ali təhsil sektorundakı rəqabət ali təhsil müəssisələrini daha rəqabətqabiliyyətli marketinq strategiyaları hazırlamağa məcbur edir, çünki ali təhsildə rəqabət artdıqca, əksər universitetlərdə əvvəllər mövcud olmayan marketinqin rolu da əhəmiyyətli dərəcədə artmışdır ( Khoi & Cuong, 2019). Universitetin marketinq səylərinə kömək edəcək əsas məlumat hissələrindən biri tələbənin oxuduğu universiteti hansı amildən təsirlənərək seçdiyini başa düşməkdir ( Maniu & Maniu, 2014). İndi əksər təhsil müəssisələri özlərini rəqabət mühitində bazara çıxarmağa ehtiyac duyduqlarını başa düşürlər ki, bu da universitetlər üçün çox

qlobal xarakter daşıyır və marketinq təcrübələrinin və konsepsiyalarının digər sektorlardan ali təhsilə ötürülməsinə dair əhəmiyyətli strategiyalar işlənib hazırlanır. Bununla belə, ali təhsil müəssisələri üçün mövcud proqramlar və digər fəaliyyətlər haqqında hər şeyi maarifləndirmək yolu ilə öz məhsullarını tanıtmasının tələbələrin universitet seçimində mühüm rola malikdir. Universitet seçimi prosesini başa düşmək asan deyil, bu proses tələbələrin həyatına təsir edən mürəkkəb qərarları ehtiva edir. Tələbələrin universitet seçiminə həm ümumi, həm də subyektiv amillər təsir göstərə bilər.

Lien və digərləri (2015) qeyd edirlər ki, ali təhsil müəssisəsini seçmək hər bir tələbənin öz həyatı üçün qəbul etdiyi vacib qərarıdır və bu qərar təkcə tələbələrin gələcək karyera yönümlərinə təsir etmir, həm də onların oxumaq motivasiyasına, öhdəliyinə və universitetlə qarşılıqlı əlaqəsinə təsir göstərir. Əslində, universitet seçimində rasional olmadıqları üçün tələbələr təhsil motivasiyasını saxlamaqda, yüksək akademik nəticələr əldə etməkdə və arzu olunan işə düzəlməkdə çətinlik çəkə bilərlər. Təhsil müəssisələrinə gəlincə, tələbələrin universitet seçiminə təsir edən amilləri başa düşmək hər bir universitetin rəqabət mühitində sağ qalması və inkişafını müəyyən edən qəbul strategiyaları və təlim proqramlarının həyata keçirilməsi üçün əsasdır (Olubukola, 2020). Universitet seçiminə təsir edən amillərin öyrənilməsi ali təhsil sektorunun çox mühüm aspektidir və bu, təhsil müəssisələrinə, eləcə də onların bütün maraqlı tərəflərinə əhəmiyyətli təsir göstərir.

Qəbul strategiyalarını tənzimləmək və daha da inkişaf etdirmək üçün universitetlər ali təhsil müəssisəsini seçiminə təsir edən amilləri bilməlidirlər. Bir çox tədqiqatlarda müxtəlif amillərin universitet seçiminə təsir etdiyi qeyd olunur. Universitet seçiminə təsir edən əsas amillər Maringe (2006), Paton və digərləri (2004), Soutar və Turner (2002), Yamamato (2006) tərəfindən aparılan tədqiqatlarda aşağıdakı başlıqlarla qeyd olunur:

- Cins
- Akademik nüfuz
- İqtisadiyyat

- Universitetin coğrafi yerləşməsi
- Universitet kampusunun imkanları

Ədəbiyyatda nəzərə alınmışdır ki, cins, gəlir və tələbənin yaşayış yeri kimi demoqrafik faktorlar da universitet seçimində nəzərə alınan xüsusiyyətlərin fərqliliyinə səbəb ola bilər (Akar, 2012). Cho və digərləri (2008) ABŞ-da 1339 nəfər birinci və ikinci kurs tələbələr arasında aparılan sorğu nəticəsində ümumilikdə tələbələrin universitet seçimində cins fərqlərinin olmadığını aşkar etdi. Kanadada Drewes və Michael (2006) tərəfindən aparılan tədqiqatda iştirak edən 27,981 tələbənin seçimlərinə institusional amillərin təsirini araşdırmaq məqsədi daşımışdır. Burada tələbələrin cins dəyişkəni baxımıdan fərqliliklərin olduğu məlum olmuşdir. Belə ki, qız tələbələrin təhsil xərcləri və maliyyə yardımı ilə bağlı mülahizələrdən kişi tələbələrə nisbətən daha çox təsirləndiyini göstərdi.Willich və digərləri (2011) Almaniyada apardıqların tədqiqatın nəticəsində qeyd edir ki, daha geniş seçim amillərində kişilər və qadınlar bir-birindən fərqlənməsələr də, təhlükəsizlik faktorları və təhsil xərcləri da daxil olmaqla təhsilin maliyyə aspektlərinə fərqli münasibət səbəbindən cinsin institusional seçimə dolayı təsiri ola bilər. Champan (1986) qeyd edir ki, universitet seçiminə təsir edən biləcək digər bir amil təhsil müddətində həyat keyfiyyətidir. Tələbələr anlayırlar ki, onlar bir neçə il universitetin yerləşdiri ərazidə yaşamaq məcburiyyətindədirlər, buna görə də onlar ətrafı və bölgədəki mövcud imkanları, habelə ali təhsil müəssisəsinin yerini nəzərə alırlar. Bu amil nöqteyi-nəzərindən ali məktəblər öz səylərini bir neçə məsələ üzərinə yönəltməlidirlər: təhsil müəssisəsi daxilində geniş çeşiddə idman proqramlarının olması, asudə vaxt imkanları, universitet nümayəndələri, tələbə birlikləri/təşkilatları, klublar və tələbə qrupları tərəfindən təşkil edilən tədbirlər, ənənəvi tədbirlər və s.

İnstitusional reputasiya məsələn, universitetin akkreditasiyası, universitetə qəbulun rəqabət qabiliyyəti, universitetin brend olaraq adı universitet seçiminə təsir edən əsas amillər hesab olunur. Webb (1993) iddia edir ki, akademik reputasiya, akkreditasiya, universitetin coğrafi yerləşməsi və təhsil xərclər mühüm amillərdir. Chapman (1993) təklif edir ki, fakültə və

proqramların keyfiyyəti, ümumi akademik reputasiya da universitet seçimində əhəmiyyətlidir. Halbuki Coccari və Cavalgi (1995) bu amilləri aşağıdakı kimi göstərir: fakültənin keyfiyyəti, xərclər, kursların müxtəlifliyi. Kallio (1995) vurğulayır ki, akademik mühit, reputasiya və institutun keyfiyyəti, kursların müxtəlifliyi, və maliyyə yardımı mühüm əhəmiyyət kəsb edən elementlərdir. Universitetin akademik reputasiyanın seçimə təsirini araşdıran çox saylı tədqiqatlar mövcuddur. İsmayılın (2009) və Keling (2006) araşdırması göstərdi ki, institusional reputasiya, təhsil haqları və akademik proqramlar tələbələrin hansı universitetdə təhsil almağa qərar verməsinə dair yüksək izahedici gücə malikdir. Akademik proqramların keyfiyyətinin, növü və müxtəlifliyinin əhəmiyyəti, eləcə də görkəmli müəllim heyətinin olması Hsieh (2010) tərəfindən aparılan araşdırmada tələbələrin təhsil almaq üçün universitet seçmək qərarlarına mötəbər təsir göstərən amillərdəndir. Donnellan (2002), digər tərəfdən, şəxsi əlaqələrin, valideynlərin, yerin və sosial həyatın təsirini araşdırır. Məlum olur ki, fərdin universitet seçimində ailənin təsir mühüm əhəmiyyət kəsb edir. Domino (2005), Tian (2006) və Yamamoto (2006) tədqiqatlarında göstərir ki, tələbələrin universitet seçimi ilə ailələri arasında müəyyən əlaqə var. Ailənin maddi dəstəyi fərdin akademik gələcəyi ilə bağlı qərarlarını məhdudlaşdıra bilər (Pimpa, 2004). Daha konkret desək, əgər tələbələrin ailələri kifayət qədər büdcə sahibdirlərsə, onların seçimlərini dəstəkləyirlər. Shanka və digərləri (2015) qeyd edir ki, ailə təsirinin ali təhsil seçimində əsas amil olduğunu müzakirə edirlər. Demək olar ki, bütün tələbələr ali təhsil planları ilə bağlı valideynləri ilə məsləhətləşdikləri üçün seçim prosesinə valideynlərin güclü təsiri olur. Valideynlərin təsiri Aguado və digərləri (2015) tərəfindən aparılan araşdırmada da vurğulanır ki, onların nəticələri göstərdi ki, valideynlər övladlarının təhsilini maliyyələşdirənlər olduqları üçün onların övladlarının ali təhsil almaq üçün getdiyi yerlərə əhəmiyyətli təsirləri var. Shanka və digərləri (2006), Beneke və digərləri (2010) və həmçinin Karl və Yousefi (2009) öz araşdırmalarında valideynlər, dostlar, müəllimlər və başqaları kimi digər insanların fikirlərinin tələbələrin təhsil almaq üçün universitetləri necə seçməsində əhəmiyyətli olduğunu aşkar etdilər. Soutar və Turner (2002) isə universitet seçiminə təsir edən

əsas amilləri iki kateqoriyaya ayırır; birincisi *universitetlə bağlı amillər*, ikincisi isə *şəxsi amillər*.




**Qrafik 1**

Qrafik 1-dən göründüyü kimi, tələbələrin seçiminə təsir edə biləcək olan universitetlə əlaqəli amillərə: universitetin akademik reputasiyası, təqdim edilən kursların müxtəlifliyi və müəllim heyətinin keyfiyyəti aid edilir. Ali təhsil müəssisəsi seçimi ilə əlaqəli şəxsi amillərə isə ailənin rəyi və dostların təsiri, evdən uzaqlıq məsafəsi təsir göstərə bilir. Bir çox tədqiqatlar universitetin coğrafi yerləşməsinin seçimə təsirini nəzərdən keçirmişdir. Belə ki, Webb (1993), Donnellan (2002), Shanka (2015), Wagner və Fard (2009), Beneke & Human (2010) universitetin şəhər mərkəzinə yaxınlığı, universitetin yerləşdiyi şəhərin coğrafi yeri, evə yaxınlığı tələbənin universitet seçimində mühüm amil olduğunu qeyd edirlər. Universitet kampusunun təhlükəsizliyi, yataqxana şəraiti, yeməkxanalar kimi fiziki imkanların, eyni zamanda kampusunun sosial obyektlərinin müxtəlifliyinin Price və digərləri (2003), Ritesh və Mitesh (2012) tərəfindən aparılan tədqiqatların nəticəsində tələbələrin universitet seçiminə təsir edən əsas amillər olduğu məlum olmuşdur. Ədəbiyyatda universitet seçiminə təsir edən mühüm amillərdən biri universitet haqqında verilən məlumatlarla bağlı amillərdir.

Müasir dövrdə informasiya texnologiyalarının inkişafı, məlumat əldə etmək xərclərinin azaldılması və məlumat əldə etmək asanlığı ilə universitet seçəcək namizədlər qərar vermə

prosesində daha rasional hərəkət edə bilirlər (Akar, 2012). Briggs və Wilson (2007) qeyd edir ki, universitetin internet səhifəsi, ağızdan ağıza, jurnal və qəzet reklamları, kampus səfərləri kimi bəzi məlumat mənbələri Şotlandiyada universitet seçiminə təsir edir. İqtisadi şərait də seçimə təsir edən mühüm səbəblərdən biri ola bilir. Məsələn, universitetin yerləşdiyi şəhərdə yaşayış imkanları və onların xərcləri, nəqliyyat haqları, universitet və digər qurumların təmin edə biləcəyi təqaüd və yardım imkanları seçimdə təsirli olur (Joseph & Joseph, 2000; Ming, 2010). Donaldson və McNicholas (2004) görə, reputasiya, kursların müxtəlifliyi, universitetin yeri, maliyyə xərcləri, universitetin imkanları, şöbənin sosial iqlimi, proqram strukturu və akkreditasiya amilləri tələbələrin ali təhsil müəssisəsi seçiminə təsir göstərir. Atarah və Peprah (2014), digər bir amilin, universitetin reklamının tələbələrin universitet seçimi qərarına təsirini tapmaq üçün apardığı tədqiqatda anket və müsahibələrdən istifadə etmişdir. Araşdırma nəticəsində məlum olub ki, reklam tələbələrə qərarına yüksək səviyyədə təsir edir. Qəbul qərarına təsir edən digər faktorlar ailə, dostlar, hazırkı tələbələr və s. olduğu məlum olmuşdur.

Elmi ədəbiyyatlar təhlil edildiyi zaman mövzu ilə əlaqəli çoxsaylı tədqiqatların həyata keçirildiyi görünmüşdür. Johnson (2010) tərəfindən həyata keçirilmiş tədqiqat çərçivəsində 475 nəfər tələbə anket sorğularında iştirak etmişdir. Araşdırma nəticəsində məlum olmuşdur ki, valideynlər və dostların tövsiyələri tələbələrin universitet seçiminə təsir edən ən başlıca amil olmuşdur. Şəxsi əlaqələr xaricində, tələbələrin universitet kampusuna səfərləri də bu seçimə təsir edən digər bir əsas amil hesab edilmişdir. Başqa bir coğrafiyada Rusiyanın Kursk vilayətində Osinevic və digərləri (2018) tərəfindən universitet seçiminə təsir edən amilləri araşdırmaq məqsədilə Kursk vilayətində yerləşən 3 universitetin 163 nəfər tələbəsi ilə anket sorğuları aparılmışdır. Əldə edilən məlumatların təhlili nəticəsində məlum olmuşdur ki, tələbələrin universitet seçiminə təsir edən ən başlıca amil təhsil aldıqları universitetin yüksək təhsil keyfiyyətinə malik olmasıdır. Əlavə olaraq məlum olmuşdur ki, universitetin müəllimlərinin yüksək peşəkarlığa malik olması, əyləncəli tələbə həyatı və digər amillər tələbələrin seçimində daha az təsirli olmuşdur.

Akar (2012) tərəfindən həyata keçirilən araşdırmada iqtisadiyyat və idarəetmə ixtisasında təhsil alan 450 nəfər tələbə müəllifin özü tərəfindən hazırlanan anket sorğularında iştirak etmiş, əldə edilən nəticələr faktor analizi, t-testi və varyans analizi ilə təhlil edilmişdir. Araşdırmada iqtisadiyyat və idarəetmə fakültəsi tələbələrinin universitet seçiminə təsir edən amillər arasında universitetin akademik nüfuzu, yerləşdiyi yer, təmin etdiyi akademik və maliyyə imkanları, universitet şəhərciyi, iqtisadi şərait və kitabxanası olduğu qənaətinə gəlinmişdir. Tədqiqatçı qeyd edib ki, universitet tələbələrinin daha əvvəl yaşadıqları iqlimə və gözləntilərini qarşılayacaq sosial və mədəni mühitə yaxın və ya daha uyğun olan universitetləri seçmələri normal və gözlənilən haldır. Tədqiqatın nəticələri göstərib ki, universitetin yerləşdiyi yer akademik reputasiyadan sonra ən çox nəzərə alınan amildir. Daha dəqiq desək, belə nəticəyə gəlmək olar ki, ailənin iqamətgahına yaxın və ya nəqliyyatın asan olduğu şəhərlərdəki universitetlər seçilir. Burada maraqlı nəticə ondan ibarətdir ki, məzun olduqdan sonra iş tapmaqda çətinlik çəkən və iş imkanlarının daha çox özəl sektorda olduğu iqtisadiyyat və idarəetmə fakültəsinin tələbələri universitetin yerləşdiyi şəhərin yaxınlığını nəzərə almırlar. Nəticələrə görə, üstünlük veriləcək universitetlər haqqında məlumat mənbəyi də namizədlər üçün mühüm seçim amili kimi görünür. Bu baxımdan ailə, dostlar, özəl tədris müəssisələri və müəllimlərdən toplanan məlumatların seçimə təsir etməsi müəyyən dərəcədə rasional görünür. Lakin internetin, rabitənin və hətta nəqliyyat vasitələrinin sürətlə inkişafı sayəsində tələbələrin başqalarının fikrinə ehtiyac olmadan sərbəst, fərdi şəkildə universitetlər haqqında məlumat əldə edə bilməsi fikri bunun rasional seçim etməkdə daha faydalı ola biləcəyini deməyə əsas verir. Tədqiqatlardan da göründüyü kimi tələbələrin universitet seçimi etmə prosesinə müxtəlif elementlər, amillər daxil ola bilir. Agrey və Lampadan (2014) tələbələrin universitet seçiminə hansı amillərin təsir etdiyini öyrənməklə universitet seçiminə qarşı qərar qəbul etmə prosesinə daxil olan müxtəlif elementləri nəzərdən keçiriblər. Respondentlər universitetin birinci kurs tələbələri və son təhsil ilində orta məktəb tələbələri arasından seçilib. Bu araşdırmada ümumilikdə 441 respondent iştirak edib. Bu araşdırmadan universitet seçiminə əhəmiyyətli təsir edən 5 əsas amil ortaya çıxdı. Bunlara həm fiziki (məsələn, kitab mağazası, bələdçilik/məsləhət ofisi) və həm də qeyri-fiziki (təqaüdlər,

kredit transferi) dəstək sistemləri daxildir; ikincisi, təhsil mühiti (müasir təhsil mühiti və imkanları, reputasiya) və iş perspektivləri, yəni məzunların işlə təmin olunma nisbətinin yüksək olması; üçüncüsü, yaxşı idman qurğularının olması; dördüncü, güclü tələbə həyatı proqramı (sağlamlıq xidmətləri, yaşayış yerləri) və fəaliyyətlər (geniş çeşiddə universitetdən kənar fəaliyyətlər) və nəhayət, təhlükəsiz və mehriban mühit (təhlükəsiz kampus, eləcə də dəstəkləyici fakültə).

Tələbələrin arzuladıqları universitetdə oxumaq istəməkləri də seçim prosesində əsas amil hesab olunur. Coşar (2016) apardığı tədqiqatda Hitit Universitetinin 1-ci kursunda təhsil alan tələbələrə anket sorğuları təqdim edilmişdir. Tələbələrin seçiminə təsir edən faktorlar arasında ilk yerdə 95 faizlə arzuladıqları universitetdə oxumaq istəmələri nəticəsinə gəlinmişdir. Bu nəticəyə əsasən aydın olur ki, universitetlər öz təbliğat işlərini həyata keçirərkən orta məktəblərə və onlara bərabər tutulan məktəblərə səfərlər və fəaliyyətlər artırılmalıdır. Ən çox arzuladıqları işə sahib olmaq fikri tələbələrə təsir etsə də, ailələri, dostları, cəmiyyətin peşələrə baxışı, imtahanlardan aldıqları ballar kimi faktorlar düşüncə və seçimlərinə təsir edir. Beləliklə, əldə edilən nəticələrlə həm tələbələrə, həm də universitet rəhbərlərinə dəstəkləyici məlumatlar təqdim edilə bilər. Tələbənin yaşadığı coğrafiya dəyişdikcə, universitet seçiminə təsir edən amillər də dəyişir. Belə ki, başqa bir coğrafiyada Afrikanın cənubunda aparılan Rudhumbunun (2017) araşdırmasında 1240 nəfərin təhsil aldığı Botho Universitetinin 300 nəfər birinci kurs tələbəsi anket sorğularında iştirak etmişdir. İlkin olaraq belə bir nəticəyə gəlindi ki, universitetin kadr keyfiyyəti, akademik proqramları, sinif otaqları, təhsil müəssisəsinin yerləşdiyi yer, eləcə də məzunların işlə təmin olunma imkanlarını özündə əks etdirən xüsusiyyətləri tələbələrin təhsil almaq üçün universiteti seçməsinə böyük təsir göstərir. İkinci nəticə ondan ibarətdir ki, universitetlərin hansı marketinq strategiyalarından istifadə etməsinin seçilməsi tələbələrin təhsil almaq üçün universitet seçimində qərarlarına təsir etmək baxımından vacibdir. Bənzər mövzuda həyata keçirilən bir digər çalışmaya nümunə olaraq Vientamda aparılmış araşdırmanı göstərmək olar. Khoi (2019) Vietnamın Sənaye Universitetində təhsil alan tələbələrin bu universiteti seçmələrinə hansı

amillərin təsir etdiyini öyrənmək məqsədilə tədqiqat aparmış, 167 nəfər birinci kurs tələbəsi anket sorğularında iştirak etmişdir. Tədqiqatın nəticəsində universitet seçiminə əhəmiyyətli dərəcədə töhfə verən dörd komponenti müəyyənləşdirilib:

- ✓ Tələbə gözləntisi
- ✓ Universitet reputasiyası
- ✓ Universitet reklamı
- ✓ Referans (ailə və dost)

Manokunun (2015) araşdırmasında isə 17 universitetdə təhsil alan 1200 nəfər tələbə aparılan anket soğularında iştirak etmişdir. Alban tələbələrin universitet seçiminə təsir edən amillərlə bağlı yeni sübutlar təqdim edilmişdir. Qeyd olunur ki, universitet seçimində internet saytları orta təsirə malikdir. Daha az və ya heç bir təsirə malik olmayan məlumat mənbələri isə bunlardır: reklam lövhələri, afişalar və mediada reklamlar, broşuralar və vərəqələr.

Khairani və digərləri (2013) Malaysiyada dövlət universitetində təhsil alan tələbələrin universitet seçiminə təsir edən amilləri araşdırmaq məqsədilə tədqiqat aparmışlar. Bu tədqiqatın iştirakçıları 1584 nəfər birinci kurs tələbəsidir. Tədqiqatda universitetin imici, təklif olunan kurs, təmin olunmuş imkan və universitetin mühiti kimi amilləri ölçmək üçün tədqiqatçıların özü tərəfindən 32 bənddən ibarət hazırlanmış sorğu anketi istifadə edilmişdir. Aparılan tədqiqatın nəticələri göstərdi ki, tələbələr universitetin prestijını universitetin mühiti, təmin etdiyi imkanlar və universitetin təklif etdiyi kursdan sonra ən təsirli faktor kimi qəbul ediblər. Malaysiya universitetlərindən birinci aparılmış bu tədqiqat bütün amillərin əslində universitetlər üçün eyni dərəcədə vacib hesab edildiyini, universitetlərin istər təklif etdikləri kurslar, istər akademik heyətinin peşəkarlığı, istərsə də kampus imkanları və s. məqamları daim inkişaf etdirib, tələbələrin gözləntilərin uyğunlaşdırmalıdırlar. Şaşeleva və digərləri (2020) Rusiyanın bir əyalətində yerləşən Tibb Universitetində tibb ixtisaslarında təhsil alan tələbələrin universiteti seçmə səbəblərini müəyyənləşdirməkdən ötrü tədqiqat aparmışdılar. Həyata keçirilən anket sorğularında ümumilikdə 316 nəfər 1, 2 və 3-cü kurs tələbələri iştirak etmişdir. Əldə olunan

datanın təhlili göstərmişdir ki, tələbələrin oxuduqları universiteti seçmələrinə təsir əsas amilləri: universitet reytinqi, təhsilin keyfiyyəti, professor-müəllim heyətinin peşəkarlığıdır.

Başqa bir coğrafiyada, İranın şimalındakı Gilan və Mazandaran əyalətlərində Cəfəri & Aliesmaili (2013), tələbələr arasında universitet seçiminə təsir edən amilləri araşdırmaq üçün tədqiqat aparılıb. Data kəmiyyət metodologiyası daxilində istifadə edilən və etibarlılığı ölçülmüş (0,79) anket sorğusundan istifadə etməklə toplanmışdır. Nəticədə iqtisadi amillərin, yəni universitetin illik təhsil haqqının tələbələrin seçiminə əsas təsir edən amil olduğu məlum olmuşdur.Universitetin reklamının seçimdə az təsirli olduğu məlum olmuşdur. Buradan belə nəticəyə gəlmək olur ki, universitetlərin qərar qəbul etmələri, lazım olan məlumatları vermək üçün məktəblər və tələbələrlə daha geniş əlaqələr qurması, reklam fəaliyyətlərini artırmaları tövsiyə olunur. Shahid və digərləri (2012) Pakistanda universitet seçiminə təsir edən amilləri araşdırmaq üçün keyfiyyət metodologiyası daxilində istifadə edilən dərin müsahibələrdən istifadə etmişdir. Nəticədə məlum olmuşdur ki, ağızdan ağıza yayılan informasiyalar, sosial şərait ali təhsil müəssisəsi seçiminə təsir edən əsas amillərdir. Əlavə olaraq, bu tədqiqatda da Cəfəri və Aliesmaili (2013) əldə etdiyi nəticə kimi, bu coğrafiyada da universitetin reklamının seçim prosesində az təsirli olduğu aşkarlanmışdır. Qeyd edilməlidir ki, dövlət universitetlərində təhsil alan tələbələrin oxuduqları universiteti seçmələrinə təsir edən amillərlə, özəl universitetlərdə təhsil alan tələbələrə təsir edən amillər fərqlənir. Belə ki, Azad (2020) tərəfindən həyata keçirilmiş araşdırma yalnız özəl universitetləri əhatə edir. Araşdırmada müxtəlif ixtisaslarda təhsil alan 518 nəfər tələbə anket sorğularında iştirak etmişdir. Tədqiqat həmçinin bəzi inkişaf etməkdə olan ölkələrdə universitetin reputasiyasının ölçülməsinə dair gələcək tədqiqatların vacibliyini vurğulayır. Bu, yerli/milli sıralama sistemlərinin və reytinq cədvəllərinin mövcud olmaması və inkişaf etməkdə olan dünya universitetlərinin beynəlxalq reytinq cədvəllərində təmsil olunmaması kontekstində xüsusilə vacib olduğu qənaətinə gəlinmişdir. Əldə edilən datanın təhlili nəticəsində özəl universitetlərdə təhsil alan tələbələrin seçiminə ən çox təsir edən əsas amilin universitetin reputasiyası və akkreditasiyası olduğu məlum olmuşdur.

Aloneriene və Klimavičiene (2013) Litvada fəaliyyət göstərən dövlət və özəl universitetlərin birinci kurs tələbələri üçün universitet seçiminə təsir edən amilləri təhlil edib.Tədqiqatda Litvanın dövlət və özəl universitetlərində idarəetmə və iqtisadiyyat ixtisasları üzrə 7907 birinci kurs tələbəsi kəmiyyət tədqiqat metodunda istifadə edilən onlayn sorğuda iştirak edib. Universitet seçimində onun reputasiyası və yerləşdiyi şəhər ən çox, şəhər və universitetin infrastrukturu və sosial həyatı isə ən aşağı təsirə malik olduğu datanın analizi nəticəsində məlum olmuşdur. Universitet seçimində qərar vermə prosesində istinad qrupunun təsirinə gəldikdə isə, valideynlər və faktiki tələbələrin ən yüksək təsirə malik olduğu məlum olmuşdur. Neil (2013) Cənubi Karolinada fəaliyyət göstərən özəl universitetlərin tələbələrinin universitet seçiminə təsir edən amillər araşdırmaq üçün apardığı tədqiqatda 202 nəfər tələbə iştirak etmişdir. Data toplama aləti kimi xüsusi amillərin qiymətləndirildiyi və demoqrafik sualların olduğu 5 ballıq Likert şkalası ibarət anket sorğularından istifadə edilmişdir. Əldə edilən datanın təhlili nəticəsində məlum olmuşdur ki, tələbələrin seçiminə təsir edən əsas amil oxuduqları təhsil müəssisəsinin prestijıdır. Qeyd etmək lazımdır ki, universitet seçimi ilə əlaqəli olan mövcud ədəbiyyat təhlil edilən zaman xarici tələbələrin də universitet seçiminə təsir edən amillərlər bağlı çox saylı araşdırmaların olduğu məlum olur. Xarici tələbələrin oxuduqları universitetləri seçmələrinə təsir edən amillər fərqli xüsusiyyətlərə malikdir. Belə ki, Dahari və Abduh (2011) Malayziyadakı universitetləri seçərkən xarici tələbələrə təsir edən amilləri müəyyən etməyə çalışıblar. Tədqiqatın müəllifləri 135 respondentdən ibarət nümunəni əhatə etmiş və respondentlər üçün hər bir amilin əhəmiyyətini müəyyən etmək üçün analitik iyerarxiya prosesini tətbiq etmişlər. Təhlil nəticələri göstərdi ki, təklif olunan proqramlar müxtəlifliyi və tədris dili amilləri xarici tələbələrin Malayziya universitetlərində təhsil almaları seçiminə təsir edən əsas amildir. Bu tədqiqatda bakalavr təhsilini alan tələbələrin universitet seçiminə təsir edən amilləri araşdırılmış və bununla bağlı olan ədəbiyyat incələnmışdır. Beynəlxalq təcrübədə təkcə bakalavr tələbələri deyil, həmçinin magistratura, doktorantura səviyyələrində təhsil alan tələbələrin də universitet seçiminə təsir edən amillər araşdırılmışdır. Məsələn, Leach və digərləri (2014) ABŞın cənub-qərbində magistr tələbələrinin proqram və universitet seçimini şərtləndirən amilləri

araşdırmışdır. Tədqiqatın nəticələri göstərir ki, tələbələr oxuduqları universiteti və proqramlarını əsasən kursların çatdırılma üsullarına (əsasən hibrid kurslara üstünlük verilir) və proqramların təklif etdiyi rahatlığa əsaslanaraq seçiblər. Bundan əlavə, iştirakçılar əsas seçimə təsir edən amil kimi universitet haqqında dostlarından, daha əvvəl universitetdə təhsil almış şəxslərdən eşitdikləri məlumatların da təsirli olduğu məlum olmuşdur.

Aşağıda universitet seçiminə təsir edən əsas amillərin hər biri haqqında mövcud ədəbiyyatlara əsaslanaraq məlumatlar təqdim olunmuşdur:

*2.2 Universitetin akademik reputasiyası*

Hoyt və Brown (1999) qeyd edir ki, hansı faktorların ən çox təsir etdiyi və bu kimi amillərin sayında dəyişiklik olması ilə bağlı ziddiyyətli nəticələr mövcuddur. Bununla belə aparılan tədqiqatların əksəriyyətində akademik reputasiya və professor-müəllim heyətinin keyfiyyəti kimi “keyfiyyət” amilləri ardıcıl olaraq prinsipial əhəmiyyətli amil olaraq müəyyən edilir (Soutar & Turner, 2002). Xüsusilə vurğulamaq lazımdır ki, universitetin akademik reputasiyası ədəbiyyatda yüksək yer tutan amildir. Ming (2010) tələbələrin seçim prosesində institutların reputasiyasının ən güclü meyar olduğunu iddia edir. Bir çox tədqiqat (Briggs, 2006; Hillenbrand və Money, 2007; Hoyt və Braun, 2003; Veloutsou və digərləri, 2004; Walsh və Beatty, 2007) seçim prosesində universitetin reputasiyasının vacibliyini vurğulayır. Universitetin akademik reputasiyasının əsas elementləri kimi, universitetin professor-müəllim heyətinin elmi nəşrlərinin keyfiyyəti və kəmiyyəti, adlarının ictimaiyyətdə müsbət tanınması, təhsilin keyfiyyəti, universitetin adının cəmiyyətdə hörmətli bir universitet kimi qəbul edilməsini göstərə bilərik. Britaniya universitetlərində tədqiqat aparan Baker və Brown universitetlərin prestijinin seçim prosesində tələbələrə təsir etdiyini üzə çıxarmaqla universitet seçimi prosesində institusional prestijın mühüm amillərdən biri olduğunu göstərmişlər. Bu tədqiqatdan başqa, Litten və Hall (1989), Morrow və digərləri (1995) və Landrum və digərləri (1998) universitet seçimində akademik reputasiyanın əhəmiyyətini vurğulayan çox saylı tədqiqatlar aparmışdır. Chaubey və digərləri (2011), ali təhsil müəssisələrinin tələbələrinin seçiminə təsir edən amillərin araşdırmış,

tədqiqatda müxtəlif müəssisələrdən olan 541 tələbə iştirak etmişdir. Məlumatların toplanması üçün anket və müsahibədən istifadə edilmişdir. Əldə olunan datanın təhlili nəticəsində ən təsirli amilin universitetin prestijı olduğu müəyyənləşdirilmişdir. Əlavə olaraq, tələbələrin seçimində tələbələrin cinsi və valideynlərin gəlirlərləri kimi demoqrafik göstəricilərin önəmli olmadığı aşkar edilmişdir. Universitet seçimində akademik reputasiya bütün növ ali təhsil müəssisələrinin seçimində mühüm rol oynadığını tədqiqatlar sübut edir. Belə ki, məsələn James və digərləri (1999), Joseph və digərləri (2012), Kusumawati və digərləri (2010),Veloutsou və digərləri (2004) tədqiqatlarında akademik reputasiyanın dövlət universitetləri, Jamil və digərləri (2012), Hassan və Sheriff (2006), Keling və digərləri (2007), Baharun və digərləri (2011) özəl universitetlər, Wilkins və Huisman (2011), Wilkins və digərləri (2012) filial universitetləri üçün əhəmiyyətini sübut etmişlər.

### *2.3 Universitetin coğrafi yerləşməsi*

Coğrafi yerləşmə və universitetin tələbələrin ailə evinə yaxınlığı tələbələrin seçiminə böyük təsir göstərir. Universitetin ailə evinə yaxınlığının universitet seçimində mühüm rol oynadığı Beneke və Human (2010), Simoes və Soares (2010), Broekemier (2012), Migin və digərləri (2015), Gill və digərləri (2018) tərəfindən aparılan tədqiqat nəticələrində sübut olunur. Kurnaz & digərləri (2019) Türkiyə və Kiprdə 30 fərqli universitetin kulinariya və qastronomiya fakültəsində təhsil alan 1213 nəfər tələbənin iştirakı ilə tədqiqat aparmışdır. Tədqiqatın nəticələrinə görə anket sorğularında qeyd edilən bütün təkliflər qiymətləndirildikdə, tələbələrin universitet seçiminə təsir edən ən başlıca amil "Universitetin ailəyə yaxınlığı" olmuşdur. Universitetin coğrafi yerləşməsinin universitet seçiminə təsiri bir neçə aspektdən qiymətləndirilə bilər. Taylor və digərləri (2003) universitetdə təhsil alan tələbələrin seçim prosesi zamanı nəzərə aldığı əsas amilin universitetin coğrafi yerləşməsi olduğunu vurğulayır. Drewes və Michael (2006), tədqiqatlarının nəticəsində eyni fikri iddia edir ki, tələbələrin əksəriyyəti evlərinə yaxın bir universitet seçirlər.Tədqiqatçılar həmçinin kanadalı tələbələrin evdən orta hesabla 273 mil məsafədə yerləşən universitetləri seçdikləri nəticəsinə gəlmişdirlər. Əlbəttə ki, bütün tələbələrin

universiteti məhz ailəyə yaxınlığına görə seçdiyi iddia oluna bilməz, bu amil tədqiqatların aparıldığı coğrafiyalardan asılı olaraq dəyişə bilər. Harker və digərləri (2001) bu amillə bağlı maraqlı bir cəhəti müəyyənləşdimişlər. Belə ki, onların tədqiqatları yetkin tələbə ilə (yuxarı kurslarda təhsil alan) və məktəbi yeni bitirmiş, yəni ilk kurslarda təhsil alan tələbə arasında daha çox fərqləri aşkar edir. Qeyd olunur ki, xüsusən məktəbi yeni bitirmiş tələbələr öz ailə evlərinə daha yaxın universitetdə oxumağa meyillidirlər. Drewes və Michael'ın (2006) Kanadanın Ontario şəhərindəki 17 universitetində apardıqları araşdırma, tələbələrin xərclərin təsirinə əsaslanaraq evlərinə daha yaxın olan universitetlərə üstünlük verdiklərini aşkar etdi. Buradan da göründüyü kimi, coğrafi yerləşmənin bir amil kimi təsir etməsinin əsas səbəbi xərclərə qənaəti təmin edə bilməsidir. Digər bir perspektiv isə universitetə tez və zamanında gedişdir. Universitetin yerləşdiyi şəhərin sosial obyektləri və məzun olduqdan sonra iş tapmaq imkanları da universitetin coğrafi yerləşməsi ilə bağlı nəzərə alına biləcək digər amillər ola bilər (Soutar & Turner, 2002).

### *2.4 Məlumatlılıq*

Müvafiq ədəbiyyat əsasında informasiya mənbələri, ailənin universitetlə bağlı verdikləri təklifləri, tövsiyələri tələbənin oxuyacağı universitet haqqında məlumatlılığı seçim prosesinə təsir edən amillər kimi müəyyən edilir. Bir çox tədqiqatçılar qeyd edir ki, müasir dövrdə universitetlər haqqında məlumat axtaran tələbələrin üstünlük verdiyi vasitə internetdir (Adams & Eveland, 2007; Anctil, 2008; Ramasubramanian & Mursi, 2002). Bu gün universitetlərə daxil olan 1-ci kurs tələbələri kompüter və onlayn texnologiyalardan ən çox istifadə edənlər sırasındadırlar (Day və digərləri, 2005). Jones (2002) vurğulamışdır ki, ali təhsil müəssisəsinə yeni qəbul olanların 20 faizi beş və səkkiz yaşları arasında kompüterlərdən istifadə etmişdir; 1618 yaşları olanda onların hamısı kompüterdən istifadə etməyə başlamışdı. Bütün bunlar halhazırda da internetin tələbələrin universitetlər haqqında məlumat axtarmaq üçün bir mənbə kimi böyüməyə davam etdiyini qeyd etməyə əsas verir. Lenhart və digərləri (2005) apardıqları tədqiqatda iştirak edən tələbələrin 57 %-i getməyi düşündükləri kollec, universitet və ya digər

məktəb haqqında məlumat almaq üçün internet mənbələri, universitetlərin rəsmi veb səhifələrindən istifadə etdiklərini söyləyirlər. Mentz və Whiteside (2004) qeyd edirlər ki , XXI əsrdə texnologiyanın inkişafı, demək olarki , əksər tələbələrin internətə çıxışın artmasından onların kollec və ya universitetləri araşdırmaq üçün internetin əsas mənbəolması təəccüblü deyil.

Ədəbiyyatda mövcud olan bir çox tədqiqatlar universitet haqqında məlumat axtaran tələbələr üçün veb saytların artan əhəmiyyətini nəzərdən keçimişdir (Poock & Lefond, 2001;Kang & Norton, 2006; Gordona & Berhow, 2009). Universitetlər üçün veb saytlarının təkmilləşdirilməsinin önəmini vurğulayan tədqiqatçılar qeyd edir ki, ali təhsil müəssisələri yenilənmiş, yaxşı təşkil edilmiş və məzmuna uyğun saytın saxlanmasının vacibliyini dərk etsə də, texnoloji cəhətdən bilikli auditoriyasının gözləntilərini daha yaxşı qarşılayacaqlar. (Kang & Norton, 2006; Hegeman və digərləri 2007; McAllister & Taylor, 2007). Tədqiqatçılar tərəfindən vurğulanan bu amil olduqca böyük əhəmiyyət kəsb edir, çünki tələbələr hansı universitetdə təhsili davam etdirəcəkləri ilə bağlı qərar qəbul edərkən başqalarının bu müəssisənin reputasiyası haqqında ağızdan-ağıza deyilən tövsiyələrindən təsirlənir, beləliklə, kolleclər və universitetlər təşkilatlarının saytı vasitəsilə təsvir etdikləri imiclə diqqətli olmalıdırlar.

Məlumdur ki, müasir dövrümüzdə internet əsas məlumat mənbəyidir (Tamtekin, 2015). Bu səbəbdən də universitetlər onlayn sosial şəbəkələrdən səmərəli istifadə edib öz internet saytlarını yerləşdirsələr, namizədlərə müsbət təsir göstərə bilərlər. Hoyt və Brown (2003), Yamamoto (2016), Kim və Gasman (2011) tədqiqatlarında veb saytların və sosial şəbəkələrin tələbələrin universitet seçiminə mühüm təsir göstərdiyini vurğulayıb. İnternetdən başqa medianın da rolu tələbələrin seçimində təsirli ola bilər. Belə ki, televiziya, qəzet və jurnallar universitetlər tərəfindən təhsil, sosial obyektlər, əlaqə məlumatları və ya iş perspektivləri haqqında məlumatları ehtiva edən reklam yerləşdirmək üçün istifadə olunur (Palmer və digərləri, 2004). Universitetlər mediada reklam yerləşdirməklə tələbələrin ali təhsil müəssisəsələri haqqında məlumatlılığı artıra və daha çox tələbə cəlb edə bilər. Aparılan tədqiqatların əksəriyyətində tələbələrin universitet seçiminə təsir edənlər arasında ən önəmlisi valideynlərin tövsiyyələri

olduğu qənaətinə gəlinmişdir. Belə ki, Malaney (1992) və digərləri valideynlərin övladlarının, xüsusən də qız övladlarının seçimində xüsusi təsirləri olduğunu qeyd etmişlər. Bununla belə, bəzi tədqiqatçlar valideynlərin yalnız uşaqlarını ali təhsil almaq üçün lazım olan xərcləri ödəməkdə rolu olduğunu, lakin hansı universitetin müraciət edəcəyi seçiminə çox az təsir göstərdiyini iddia edirdilər ( Schmit, 1992). Amerika universitetləri seçimdə valideynlərin mühüm rolunu müəyyən etmiş və onları marketinq səylərinə daxil etmişdir. ( Terenzini və digərləri, 2001; RowanKenyon və digərləri, 2008)

### *2.5 İmkanlar*

Ali təhsil müəssisəsində mövcud olan istər fiziki obyektlər, istərsə də sosial imkanlar, müasir infrastruktur tələbələrin seçimində təsirli ola bilir. Agrey və Lampadan (2014) Tayland universitetlərində təhsil alan birinci kurs tələbələri arasında apardıqları araşdırmada müşahidə etmişlər ki, öyrənmə mühiti və müasir imkanların mövcudluğu tələbələrin universitet seçiminə təsir edən beş mühüm amil arasında ikinci və üçüncü yeri tutur. Fiziki obyektlər arasında universitet kitabxanası, yataqxanalar, sosial imkanlar arasında təqaüdlər, mübadilə proqramları, birinci yerdə qiymətləndirilmişdir. Digər tədqiqatçılar İshaq və Aliyu (2020) imkanların universitet təhsili tələbinə təsirini araşdırdılar. Tədqiqat nəticəsində məlum olmuşdur ki, universitet maddi texniki bazasının artırılması daha çox tələbə cəlb etməkdə mühüm rol oynayır. Coccari və Javalgi (1999) universitet seçimində göstərmişdir ki, seçimə təsir edən amillərdən biri də yataqxana imkanlarıdır. Veloutsou və digərləri (2004) də universitet seçimində təqdim edilən yataqxana imkanlarının mövcudluğunun təsirli olduğunu bildirmişdir.

*2.6 Universitet kampusu*

Universitet şəhərciyi tələbənin universitet seçiminə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Kampusun ölçüsü, obyektlər, təhlükəsizlik, ekoloji davamlılıq kimi amillər seçimdə rol oynaya bilər. Yaxşı dizayn edilmiş və təchiz olunmuş kampus ümumi tələbə təcrübəsini artıra, aidiyyət və icma hissini inkişaf etdirə bilər. Bundan əlavə, kampus atmosferi və mədəniyyəti də tələbənin qərarlarına təsir edə bilər, çünki tələbələr çox vaxt öz üstünlükləri və dəyərlərinə uyğun bir mühit axtarırlar. Universitet kampusunun əhəmiyyətini dərk edərək, universitetlər öz təkliflərini tələbələrin inkişaf edən ehtiyaclarını və üstünlüklərini ödəmək üçün daha yaxşı uyğunlaşdıra, bununla da onların ali təhsil mənzərəsində rəqabət qabiliyyətini artıra bilərlər (Echchabi & Hajri, 2018). Lin (1997) tədqiqatında tələbələrin universitetlərə üstünlük verməlirinin səbəbləri arasında Hollandiyada kampusdakı tələbə həyatı, müasir binalar və beynəlxalq tələbə quruluşu kimi dəyişənlərin olduğunu qeyd etmişdir. Başqa bir coğrafiyada, Avstraliyada universitet seçiminə təsir edən faktorları araşdıran araşdırmalarında Soutar və Turner (2002) universitet seçimində 10% nisbi əhəmiyyətlə tədqiq edilən 10 faktor arasında kampus atmosferinin beşinci yerdə olduğunu göstərdilər.

*2.7 İqtisadiyyat*

İqtisadi mülahizələr tələbələrin ali təhsillə bağlı qərarlarında həlledici rol oynayır. Tələbələrin universitet seçiminə təsir edən amilləri araşdıran tədqiqatların əksəriyyətində təhsil ödənişi ən çox öyrənilən amil olmuşdur. Qlobal miqyasda hal-hazırda tələbələrin əksəriyyəti əvvəlki nəsillərlə müqayisədə ali təhsili üçün daha yüksək ödənişlər ödəmək baxımından problemlərlə üzləşir (Chung və digərləri, 2009). Qeyd etmək lazımdır ki, əslində universitet ödənişləri bakalavr təhsili alan tələbələr arasında daha aktual məsələdir, çünki onlar maddi dəstək üçün yalnız ailələrindən asılıdırlar. Müqayisə üçün, magistrantlar, doktorantlar ödəniş qiymətlərinə daha az həssasdırlar, çünki onların əksəriyyəti işləyir. Akar (2012) görə, təhsil xərclərini təşkil edən ən mühüm maddə universitet haqqı olsa da, bəzi digər xərc maddələri də nəzərə alınmalıdır. Maniu və Maniu (2014) müəyyən etdilər ki, universitet seçiminə təsir edən iqtisadiyyat aşağıdakı

elementləri özündə ehtiva edir: təhsil haqları, yaşayış (sosial) xərcləri, o cümlədən kirayə, yemək və digər xərclər, ailə büdcəsi, təqaüd imkanları. Ədəbiyyatda aparılan araşdırmaların əksəriyyəti göstərir ki, xərc və konkret universitetə qəbul olma arasında mənfi əlaqə var ( Jackson, 1982; Litten, 1982; Leslie & Brinkman, 1988; Braxton & Coopersmith, 1989; Cabrera & Nasa, 2000; Joseph & Joseph, 2000; Quigley və digərləri, 2000; Broekemier, 2002; Domino və digərləri, 2006; Obermeit, 2012; Foskett və digərləri, 2015).

*2.8 Akademik proqramların müxtəlifliyi və iş tapmaq imkanları*

Bir çox araşdırmalar göstərir ki, tələbələrin universitet seçimində akademik proqramların mövcudluğu da böyük rol oynayır (Galotti & Mark 1994; Gill və digərləri 2018; Hoyt & Brown 2003; Kim & Gasman 2011; Maringe 2006; Obermeit 2012; Pampaloni 2010). Bu məlumat müəyyən sahələrdə işləməyi planlaşdıran, spesifik olaraq hər hansı bir proqrama görə oxuduğu universiteti seçən tələbələr üçün çox vacibdir. Bir məqamı vurğulamaq lazımdır ki, tələb olunan akademik proqramların mövcudluğu kurs seçimləri, dərəcə proqramlarının çevikliyi və akademik tanınma kimi bəzi vacib alt məsələləri nəzərdə tutur. Müxtəlif akademik proqramların mövcudluğu, fərqli tədris metodları, əcnəbi müəllim heyəti, kurikulum və kitablar kimi amillərin təsirini araşdıran Əl-Fəttal (2010) bu amillərin təhsilalanların seçimində vacib hesab olunduğunu qeyd etmişdir. Karyera rəhbərliyi, universitet məzunlarının iş tapmaq imkanları tələbələrin konkret universitetə müraciət etmək qərarına təsir edə biləcək amillərdən biri hesab oluna bilər. Xüsusilə vurğulamaq lazımdır ki, bu fikir karyera məlumatının konkret ali təhsil müəssisəsinin seçimi zamanı ən vacib məlumat kateqoriyası olduğunu bildirən əvvəlki tədqiqat nəticələri ilə dəstəklənir. (Joseph & Joseph, 2000). Bir çox araşdırmalar qeyd edirdi ki, tələbələr üçün karyera imkanları/imkanları/hazırlıq, o cümlədən məşğulluq imkanları, iş axtarmağa universitet yardımı (oxuyarkən və sonra), işə yerləşdirmə dərəcələri, staj imkanları, universitet-sənaye ortaqlığı seçim qərarında çox əhəmiyyətlidir (Soutar & Turner 2002, Standifird 2005, Băcilă və digərləri 2006, Bowman & Bastedo 2009, Brewer & Zhao 2010). Hər bir ali təhsil müəssisəsi üçün tələbəsinin işlə təmin olunmasında köməklik göstərməsi onun prestijının daha da artmasında

böyük rol oynayır. Paulsen (1990) və Murray və digərləri (1997) qeyd edir ki, məzun olduqdan sonra iş imkanları və universitetin imkanlara çatmaqda köməklik göstərməsi tələbələrin seçimlərinə təsir edir.

Qeyd etmək lazımdır ki, tədqiqatçılar öz çoxsaylı araşdırma və tədqiqatlarında universitet seçimini təhlil edən bir sıra modellər aşkar etmişlər.

### *2.9 Universitet seçimi modelləri*

Bu modellər vasitəsilə universitet seçimi prosesi və bu prosesə təsir edən amilləri başa düşmək olar. Bu modellər istehlakçı satın alma davranışı kimi tanınır və çox mərhələli proses hesab olunur: *ehtiyac, məlumat araşdırması, alternativlərin qiymətləndirilməsi, satın alma qərarı və satınalma sonrası hisslər və davranışlar* ( Kotler, 2003). Chapman (1981) istehlakçı davranışı nəzəriyyəsini təhsildə ilk tətbiq edən biri olaraq, universitet seçimində tələbələr və onların valideynlərinin unikal şəkildə müəyyən edilmiş bir neçə mərhələdən keçəcəyini təklif edir. Bu addımlara aşağıdakılar daxildir: *tədqiqatdan əvvəlki davranış, tədqiqat davranışı, müraciət prosesi, qərar qəbul etmə, qeydiyyat* (Manoku, 2015). Universitet seçimi prosesi ilə əlaqəli olan digər bir model Jakson Modeli adlanır. Jakson (1982) modelinə görə tələbə seçim edərkən 3 mərhələdən keçir. Bunlardan birincisi akademik nailiyyətin ən güclü təsirə malik olduğu üstünlük mərhələsidir. İkincisi tələbələrin müsabiqədə iştirak etdiyi seçim mərhələsidir. Sonuncu, tələbələrin yekun qərarlarını aldıqları qiymətləndirmə mərhələsidir. Daha konkret desək; o, universitet seçimi prosesində ilk addım kimi akademik nailiyyətləri vurğulayır. Hanson və Litten Modeli (1982) isə ədəbiyyatda universitet seçimində ən çox təsir edən modellərdən biri hesab olunur. Bu model üç addımdan ibarətdir: ali təhsil müəssisəsinə daxil olmaq qərarı, müəssisənin araşdırılması, müraciət və qeydiyyat prosesi. Bu addımlar çərçivəsində tələbənin keçdiyi 5 ayrı proses var: *təhsili davam etdirmək istəkləri, tədqiqat prosesinə başlamaq, məlumat toplamaq, ərizələrin göndərilməsi və qeydiyyata alınması (* Dao & Thorpe, 2014). Bu beş addımlı proses seçimə təsir edən çoxlu dəyişənləri təqdim edir. Bu model Chapman və Jackson modellərinin birləşməsi kimi görünür. Hossler və digərləri (1999) iddia edir ki, universitet seçim

prosesini anlamağa çalışan tədqiqatların əksəriyyəti aşağıdakı kateqoriyalardan birinə daxil edilə bilər: iqtisadi modellər, sosioloji modellər və birləşmiş modellər. Digər bir model, kommunikasiya səyləri ilə tamamlanan daxili və xarici təsirlərdən təsirlənən universitetin seçilməsi prosesini izah edən marketinq yanaşmasıdır. İqtisadi modellər, ümumiyyətlə tələbənin öz faydasını artırmaq və riskləri minimuma endirmək istədiyi fərziyyəsinə əsaslanır ( Tamtekin, 2015). Bu modelin məhdudluğu ondan ibarətdir ki, onlar seçim təsiri kimi yalnız tələbələrin rasionallığına diqqət yetirirlər. Yəni, bu model tələbələrin qərar qəbul edərkən öz seçimlərinə uyğun olaraq əllərində olan bütün məlumatları qiymətləndirərək rasional hərəkət etmələri mənasını ifadə edir. Fernandezin (2010) fikrincə, fərdlər öz şəxsi üstünlüklərini nəzərə alaraq, öz faydalarını maksimuma çatdırmaq üçün rasional hərəkət edirlər. Sosioloji modellər universitet seçərkən sosial-iqtisadi vəziyyət, perspektivlər və tələbələrin akademik nailiyyətləri kimi mədəni və sosial kapitalın təsirinə diqqət yetirir (Perna, 2006). Universitet seçimi prosesini izah edən digər bir model olan birləşmiş modellər  həm sosioloji aspektlərdən, həm də rasional qərarlardan ibarətdir. Marketinq modeli iddia edir ki, biz universitet seçimi prosesinin modellərini başa düşmək üçün marketinq yanaşmasını qeyd etməliyik. Bu yanaşma birbaşa sosioloji və ekonometrik anlayışlara istinad etmir (Obermeit, 2012). Buna baxmayaraq, o, daxili (mədəni, sosial, şəxsi, psixoloji xüsusiyyətlər), eləcə də provayderin ünsiyyət səyləri ilə tamamlanan xarici (sosial, mədəni, məhsul və qiymət stimulları) təsirlər baxımından istehlakçı seçim modellərinə daxil edilir ( Pero və digərləri, 2015). Buna görə də, istehlakçı davranış modelləri universitet seçim prosesinin marketinq yanaşmasına daxil edilə bilər. Tələbələrin universitet seçimlərinə təsir edən amilləri araşdıran çoxlu ədəbiyyat var. Tədqiqatlardan əldə edilən ümumi nəticə ondan ibarətdir ki, universitet seçiminə  təsir edən bir çox amil var.

Sonda mövcud ədəbiyyatın təhlili belə qənaətə gəlməyə imkan verir ki, universitet seçiminə təsir edən amilləri araşdıran nəzəri və empirik çoxsaylı tədqiqatlar var. Ümumilikdə, aparılan tədqiqatların coğrafi kontekstlərinin, aparılma tarixlərinin  fərqli olmalarına baxmayaraq, tədqiqatların əksəriyyətində xeyli sayda ortaq amillər universitet seçimində mühüm rol oynayır.

## 3. Metodologiya

### *3.1 Tədqiqatın metodu*

Cənub bölgəsində fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil alan birinci kurs tələbələrinin universitet seçiminə təsir edən amilləri araşdıran bu tədqiqat kəmiyyət metodologiyası ilə aparılmışdır. Kəmiyyət tədqiqatları, problemin miqyasını, tendensiyasını və gedişatını təsvir, dəyişənlər arasındakı əlaqələri isə müəyyən edərək, hadisələrin başverməsəbəbini izah etməyə çalışırlar (Şahbazov, 2019). Əlavə olaraq, kəmiyyət araşdırmaları kəşfiyyat xarakterli deyil, onlar daha çox təsviredici və izahedici məqsəd daşıyır. Bu səbəbdən də adı çəkilən metodologiyadan istifadə etməklə Cənub bölgəsində fəaliyyət göstərən ali təhsil müəssisələrinin 1-ci kursunda təhsil alan tələbələrin oxuduqları universitetləri seçmələrinə hansı amillərin daha çox təsir etdiyi təsvir ediləcək və aydınlaşdırılacaqdır.

### *3.2 Hədəf əhali və seçmə*

Tədqiqatın populyasiyasını Cənub bölgəsində fəaliyyət göstərən iki ali təhsil müəsssisəsinin birinci kurs tələbələri təşkil edir. Bu tədqiqatda təsadüfi seçmə metodundan istifadə etməklə Creswellin (2017) qeyd etdiyi kimi, müxtəlif tip insanların fikirlərini qısa zaman kəsiyində öyrənib ümumiləşdirici fikir irəli sürə bilmək imkanı olacaqdır. Belə ki, hər iki ali təhsil müəssisəsindən əldə olunan statistikaya əsasən Cənub bölgəsində yerləşən iki universitetdə halhazırda ümumilikdə 1591 nəfərin 1-ci kursda təhsil aldığı qeyd oluna bilər. Beləliklə, tədqiqatın populyasiyası 1591 nəfərdən ibarətdir. Zaman və digər resursların məhdudluğu səbəbindən populyasiyanın tamamına əlçatanlıq mümkün olmadığından, ümumi populyasiyadan nümunə qrup seçilmişdir. Nümunə qrupu bəsit təsadüfi seçimlə seçilən respondentlərdən formalaşdırılmışdır. Nümunə qrupu 95 % etibarlılıq, 5 % xəta payı nəzərə alınmaqla seçilmiş və bu rəqəm 320 olmuşdur (Franklin, 2002). Tədqiqatda iştirak edən tələbələrin demoqrafik xüsusiyyətləri barədə məlumat aşağıdaki cədvəldə verilmişdir:

**Cədvəl 1. Tələbələrin demoqrafik məlumatlarının say və faiz göstəriciləri**

| Dəyişkən | Qruplar | N | % |
|---|---|---|---|
| Cins | Kişi | 180 | 55,9 |
| | Qadın | 142 | 44,1 |
| Ailənin aylıq gəliri | 0-500AZN | 114 | 35,4 |
| | 501-1000AZN | 126 | 39,1 |
| | 1001-1500AZN | 57 | 17,7 |
| | 1501-2000AZN | 25 | 7,8 |
| Yaşayış yeri | Tələbə evi | 134 | 41,6 |
| | Ailənin yanı | 168 | 52,2 |
| | Dövlət və ya özəyataqxana | 20 | 6,3 |

Cədvəl 1-dən göründüyü kimi tədqiqatda iştirak edən tələbələrin 180-ı (55,9%) qadın, 142-i (44,1%) isə kişidir. Ailənin aylıq gəlirinə görə 114-ü (35,4%) 0-500 AZN arası, 126-ı (39,1%) 501-1000 AZN arası, 57-i (17,7%) 1001-1500 AZN arası, 25-i (7,8%) 1501-2000 AZN arası aylıq gəlirə sahibdir. Yaşayış yerinə görə isə tələbələrin 134-ü (41,6%) tələbə evi, 168-i (52,2%) ailənin yanı, 20-i ( 6,3 %) isə dövlət yataqxanası və ya özəl yataqxana olanlardır.

*3.3 Data toplama aləti*

Kəmiyyət tədqiqatı rəqəmsal məlumatların toplanmasına və insanların qrupları arasında ümumiləşdirilməsinə və ya müəyyən bir fenomeni izah etməyə yönəlmişdir ( Babbie, 2010). Bu tədqiqatda kəmiyyət metodologiyası daxilində istifadə edilən və ən geniş yayılmış məlumat toplama üsullarından biri hesab edilən anket sorğularından istifadə edilmişdir. Anket sorğuları müxtəlif sahələrdə akademik və ya marketinq tədqiqatları üçün çox istifadə olunan məlumat

toplama üsuludur (Regmi & digərləri, 2016). Anket sorğuları müşahidə olunmayan məlumatların ölçülməsi üçün ən uyğun metod hesab edilir, bu səbəbdən qeyd edilən metoddan istifadə etməklə Cənub bölgəsində təhsil alan tələbələrin universitet seçiminə hansı amillərin təsir etdiyi müəyyənləşdirilmişdir. Tədqiqat çərçivəsində data toplamaq üçün mövcud ədəbiyyat təhlil olunaraq, sorğu aləti hazırlanmışdır. İstifadə olunan sorğu aləti 2 bölmədən ibarətdir. Sorğunun 1-ci bölməsində respondentlərin cinsi, ailələrin aylıq gəliri, yaşayış yeri kimi demoqrafik xüsusiyyətlər soruşulmuşdur. 2-ci bölmədə isə tələbələrin universitet seçimlərinə təsir edən amillərlə bağlı 5 ballıq Likert şkalasında hazırlanmış 22 maddə mövcuddur. Sorğu alətindəki 1-6-cı maddələr "prestij" faktorunu, 7, 9, 10, 26, 28, 30-cu maddələri "yer" faktorunu, 11-15-ci maddələr "kampus" faktorunu, 21-25-ci maddələr isə "məlumat" faktorunun universitet seçiminə təsirini ölçür. İştirakçılardan tamamilə razıyam (5), razıyam (4), qərarsızam (3), razı deyiləm (2), qətiyyən razı deyiləm (1) alternativlərindən birini seçməklə ifadələrlə razılıq dərəcələrini göstərmələri xahiş olunmuşdur. Anket sorğusunda olan maddələrin hər biri müxtəlif ölçüləri ifadə edir. Sorğunun ölçüləri bunlardır: prestij, yer, kampus, məlumatlılıq. Çalışmada ölçmə vasitəsinin etibarlılıq əmsalı "Cronbach Alfa" hesablanmışdır və nəticə 0,87 olmuşdur. Etibarlılıq əmsalı 0,6 ilə 0,8 arasında olduqda bu şkalanın kifayət qədər etibarlı olduğunu göstərir; 0,8-dən çox bal şkalanın yüksək etibarlı olduğunu göstərir (Özdamar, 2002). Bu mənada ölçmə vasitəsinin etibarlı olduğu qeyd edilə bilər. İlkin mərhələ üçün ölçmə alətinin pilot tətbiqetməsi aparılmış, sualların mövcud kontekstə uyğunluğu yoxlanılmışdır. Daha sonra etibarlılığı təsdiqlənmiş sorğu alətindən istifadə edilərək tədqiqat sualı cavablandırılmışdır.

*3.4 Ölçmə alətinin pilot tətbiqetmə mərhələsi*

Pilot tətbiq mərhələsində regiondakı bir universitetinin birinci kurslarında təhsil alan 179 tələbədən data onlayn formatda toplanmışdır. Toplanan data müxtəlif analizlərlə təhlil edilmişdir. Belə ki, kəşfedici (EFA- Exploratory factor analysis) və təsdiqedici (CFA- Confirmatory factor analysis) faktor analizindən istifadə edilərək data toplama alətinin validliyi və etibarlılığı test edilmişdir. Bundan əlavə data toplama alətinin etibarlılıq əmsalı da

hesablanmışdır. EFA nəticəsinə görə 1-dən (eingenvalue) böyük olan 4 dəyərin olduğu müəyyən olunmuşdur. Bu isə ölçmə alətinin 4 ölçüsünün olduğunu göstərmişdir. CFA nəticələri də 4 faktorlu strukturu təsdiq etmişdir. CFA nəticələri aşağıdakı şəkildə təsvir olunmuşdur.




**Şəkil 2**

*3.5 Datanın toplanması prosesi*

Məlumdur ki, üz-üzə, telefon müsahibələri və poçt sorğuları anket sorğularını doldurmaq üçün ənənəvi yanaşmalardır. Bununla belə, qlobal miqyasda internet çıxışın artması ilə onlayn sorğu anketi kimi yeni internet əsaslı məlumat toplama texnikası son illərdə populyarlaşmışdır ( Evans & Mathur, 2005). Bu tədqiqatda datanı toplamaq üçün Google Formsdan istifadə edilmişdir. Onlayn sorğu vasitəsilə məlumatların toplanması böyük həcmdə məlumatı səmərəli şəkildə vaxta qənaət edərək toplamaq potensialına malikdir (Çobanoğlu, 2003). Fevral ayından mart ayına qədər sorğu aktiv olmuş və 330 respondent sorğunu cavablamışdır.

*3.6 Datanın analizi*

Toplanılmış data analiz edilməzdən əvvəl ölçmə üzrə olan dəyərlər tədqiq edilmiş və hansı analiz üsullarından istifadə ediləcəyinə buna uyğun olaraq qərar verilmişdir. Tədqiqatda istifadə olunan ölçmə vasitəsindən onlayn formada əldə edilən məlumatlar ilk öncə "Google form"dan "Microsoft Excel" vasitəsilə cədvələ çevrilmiş, daha sonra SPSS 27.0 proqramı vasitəsilə təhlil edilmişdir.

## 4. Nəticələr

*4.1 Normallıq testi nəticələri*

Tədqiqat çərçivəsində əldə edilmiş məlumatların parametrik və ya parametrik olmayan analiz metodlarından istifadə edilərək analiz ediləcəyini təyin etmək üçün məlumatların normal paylanma xüsusiyyəti araşdırılmışdır. Normallıq testinin nəticələri Cədvəl 2-də göstərilmişdir:

Cədvəl 2. Normallıq testi nəticələri

| Ölçü | N | Skewness | Kurtosis |
|---|---|---|---|
| Prestij | 322 | -.251 | -.223 |
| Yer | 322 | -.100 | -.489 |
| Kampus | 322 | -.385 | -.206 |
| Məlumat | 322 | -.106 | -.494 |

Cədvəl 2-də qeyd olunduğu kimi "Skewness"(Əyrilik) və "Kurtosis"(Kurtoz) dəyərləri normallıq testinin nəticəsinə görə -/+1 sərhədləri daxilindədir. "Skewness"(Əyrilik) və

"Kurtosis"(Kurtoz) dəyərləri -/+1 sərhədləri daxilində olduğu zaman balların normal paylanmasında əhəmiyyətli fərqlilik görülmədiyi şəklində şərh oluna bilir ( Das, 2016). Belə ki, yuxarıda qeyd edilən cədvəl 2-yə əsasən toplanılan məlumatların normal paylandığı müəyyənləşdirilmiş və parametrik testlərinin tətbiq edilməsinə qərar verilmişdir.

*4.2 Tələbələrin universitet seçiminə təsir edən amillərin təhlili*

Tədqiqatda iştirak edən 1-ci kurs tələbələrinin universitet seçiminə təsir edən amilləri aşağıdaki cədvəl təqdim olunmuşdur.

**Cədvəl 3. Tələbələrin universitet seçiminə təsir edən amillərin təhlili**

| Ölçü | N | X̄ | Qiymətləndirmə |
|---|---|---|---|
| Prestij | 322 | 3.47 | Yüksək |
| Yer | 322 | 3.37 | Orta |
| Kampus | 322 | 3.40 | Orta |
| Məlumat | 322 | 3.37 | Orta |

Cədvəl 3-dən göründüyü kimi tələbələrin universitet seçiminə təsir edən amillərin əsasında ən yüksək ədədi ortaya ( x̄ =3.47) malik ölçü "prestij"-dir. Bundan əlavə "kampus" ölçüsünü ədədi ortasına (x̄ =3.47) baxdığımız zaman tələbələrin universitet seçiminə "kampus"

ölçüsü ilə bağlı amillərin təsirinin orta olduğu məlum olur. Ədədi ortalamaların şərhi zamanı "1.0-1.80" aralığı çox zəif, "1.81-2.60"aralığı zəif, "2.61-3.40" aralığı orta, "3.41-4.20" aralığı yüksək, "4.21-5.0" aralığı isə çox yüksək şəkildə qiymətləndirilir ( Büyüköztürk və digərləri, 2018). Əlavə olaraq, cədvəl təhlil edilən zaman digər bir ölçü olan "məlumat" ölçüsü ilə əlaqəli olan amillərin tələbələrin universitet seçimində orta təsirə malik olduğu aydın olur ($\bar{x}$ =3.40). Sonuncu ölçü olan "yer" ölçüsüdür ki, bu ölçünün ədədi ortasına ($\bar{x}$ =3.37) nəzər yetirdiyimiz zaman, "yer" ölçüsü ilə bağlı amillərin də təsirinin orta olduğu müəyyən olunmuşdur. Qeyd olunanlardan yola çıxaraq bildirmək olar ki, 4 ölçü arasında ən yüksək ədədi ortaya malik ölçü "prestij"-dir. Bununla da məlum olur ki, 1-ci kursda təhsil alan tələbələr daha çox "prestij" amilinə görə oxuduqları universiteti seçirlər.

### *4.3 Tələbələrin seçiminə təsir edən amillərin cins dəyişkəni baxımından statistik təhlili*

Tədqiqat çərçivəsində bir digər alt sualla bağlı təhlil aparılmışdır. Belə ki, tələbələrin universitet seçiminə təsir edən amillərin cins dəyişkəni baxımından fərqlilik göstərib-göstərmədiyi *t* testindən istifadə edilərək təhlil edilmişdir. Təhlilin nəticəsi Cədvəl 4-də təqdim olunub.

**Cədvəl 4. Tələbələrin universitet seçiminə təsir edən amillərin *cinsi* dəyişkəni baxımından analiz edilmiş müstəqil qruplar t Testi nəticələri.**

| | Cins | N | $\bar{X}$ | Sd | T | Df | P |
|---|---|---|---|---|---|---|---|
| prestij | Kişi | 142 | 3.43 | .81 | -.769 | 320 | .881 |
| | Qadın | 180 | 3.50 | .84 | -.773 | 307 | |
| kampus | Kişi | 142 | 3.39 | .80 | .185 | .853 | .080 |
| | Qadın | 180 | 3.37 | .93 | .189 | .851 | |
| melumat | Kişi | 142 | 3.42 | .80 | .181 | 320 | .056 |
| | Qadın | 180 | 3.40 | .92 | .185 | 317 | |
| yer | Kişi | 142 | 3.34 | .82 | .-754 | 320 | .404 |
| | Qadın | 180 | 3.41 | .87 | .-759 | 309 | |

(*p>.05)

Cədvəl 4 analiz edilən zaman tələbələrin universitet seçiminə təsir edən amillərin cinsiyyət dəyişkəni baxımından statistik olaraq fərqlilik olduğu görünməmişdir (t(415)=3.33, p<.05). Belə ki, qeyd edilən ölçünün hər birində p>.05-dan yüksək olması tələbələrin universitet seçiminə təsir edən amillərin cins dəyişkəni baxımından heç bir fərq yaratmadığını qeyd etməyə əsas verir. Yəni cins dəyişkəni tələbələrin universitet seçimində prestij, kampus, məlumat və yer kimi faktorlar baxımından fərqlilik xüsusiyyətinə malik deyildir.

*4.4 Tələbələrin universitet seçiminə təsir edən amillərin ailənin aylıq gəliri dəyişkəni baxımından statistiki olaraq əhəmiyyətli bir fərqlilik göstərib-göstərmədiyinə dair tapıntılar və müzakirəsi.*

Tədqiqat çərçivəsində bir digər alt sualla bağlı təhlil aparılmışdır. Belə ki, tələbələrin universitet seçiminə təsir edən amillərin ailənin aylıq gəliri baxımından fərqlilik göstəribgöstərmədiyi *"One-way Anova" testindən* istifadə edilərək təhlil edilmişdir. Cədvəl 5-də tələbələrin universitet seçiminə təsir edən amillərin ailənin aylıq gəliri dəyişkəni baxımından analiz edilmiş tək yönlü "One-Way ANOVA" Testi nəticələri qeyd olunmuşdur.

**Cədvəl 5. Tələbələrin universitet seçiminə təsir edən amillərin *ailənin aylıq gəliri* dəyişkəni baxımından analiz edilmiş tək yönlü " One- Way ANOVA" testi nəticələri**

| Ölçü | Ailənin aylıq gəliri | N | df | F | P | Fərqlilik |
|---|---|---|---|---|---|---|
| prestij | 0-500 AZN | 114 | | | | |
| | 501-1000 AZN | 126 | 3-321 | 6.512 | .000 | Var |
| | 1001-1500 AZN | 57 | | | | |
| | 1501-2000 AZN | 25 | | | | |
| kampus | 0-500 AZN | 114 | | | | |
| | 501-1000 AZN | 126 | 3-321 | 329 | .805 | Yoxdur |
| | 1001-1500 AZN | 57 | | | | |
| | 1501-2000 AZN | 25 | | | | |
| melumat | 0-500 AZN | 114 | | | | |
| | 501-1000 AZN | 126 | 3-321 | 1.196 | .311 | Yoxdur |
| | 1001-1500 AZN | 57 | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 1501-2000 AZN | 25 | | | | |
| yer | 0-500 AZN | 114 | | | | |
| | 501-1000 AZN | 126 | 3-321 | .625 | .599 | Yoxdur |
| | 1001-1500 AZN | 57 | | | | |
| | 1501-2000 AZN | 25 | | | | |

( p<.05)

Cədvəl 5 analiz edilən zaman prestij ölçüsü istisna olmaqla tələbələrin universitet seçiminə təsir edən amillərin kampus, yer, məlumat ölçülərində ailənin aylıq gəliri dəyişkəni hər hansı bir təsiredici rola malik olmadığı aydın olur. Yəni aylıq gəliri 0-500 AZN arası olan ailə ilə aylıq gəliri 501-1000 AZN azn arası, 1001-1501 AZN arası və 1501-2000 AZN arası olan ailədən gələn tələbənin universitet seçimində kampus, yer, məlumatlılıq ölçüləri statistik olaraq fərqlilik göstərmir. Lakin prestij ölçüsündə isə qruplar arası fərqlilik olduğu müşahidə olunur. Bu fərqliliyin hansı qruplar arasında olduğunu müəyyənləşdirmək üçün Post Hoc , LSD ( least significant difference - ən az əhəmiyyətli fərq) testlərindən istifadə olunmuşdur. LSD testinin nəticələrinə əsasən qeyd etmək olar ki, ailəsinin aylıq gəliri 0-500 AZN arası olan tələbələrin seçdikləri universitetin prestijinə dair düşüncələri daha yüksəkdir. Yəni 0-500 AZN arası aylıq gəlirə sahib olan ailələrdən gələn təhsilalanlar, 501-1000 AZN arası və 10001-2000 AZN arası aylıq gəlirə malik ailələrdən gələn təhsilalanlarla müqayisədə universitetin prestijini yüksək qiymətləndirir.

*4.5 Tələbələrin universitet seçiminə təsir edən amillərin yaşayış yeri dəyişkəni baxımından statistiki olaraq əhəmiyyətli bir fərqlilik göstərib-göstərmədiyinə dair tapıntılar və müzakirəsi.*

Tədqiqat çərçivəsində növbəti alt sualla bağlı təhlillər aparılmışdır. Belə ki, tələbələrin universitet seçiminə təsir edən amillərin yaşayış yeri baxımından fərqlilik göstərib-göstərmədiyi *“One-way Anova” testindən* istifadə edilərək təhlil edilmişdir. Cədvəl 6-da tələbələrin universitet seçiminə təsir edən amillərin yaşayış yeri dəyişkəni baxımından analiz edilmiş tək yönlü “OneWay ANOVA” Testi nəticələri qeyd olunmuşdur.

**Cədvəl 6. Tələbələrin universitet seçiminə təsir edən amillərin *yaşayış yeri* dəyişkəni baxımından analiz edilmiş tək yönlü " One- Way ANOVA" testi nəticələri**

| Ölçü | Yaşayış yeri | N | df | F | P | Fərqlilik |
|---|---|---|---|---|---|---|
| prestij | Tələbə evi | 134 | | | | |
| | Ailənin yanı | 168 | 3-321 | .937 | .423 | Yoxdur |
| | Dövlət və ya özəl yataqxana | 20 | | | | |
| kampus | Tələbə evi | 134 | | | | |
| | Ailənin yanı | 168 | 3-321 | .160 | .923 | Yoxdur |
| | Dövlət və ya özəl yataqxana | 20 | | | | |
| melumat | Tələbə evi | 134 | | | | |
| | Ailənin yanı | 168 | 3-321 | 1.449 | .228 | Yoxdur |
| | Dövlət və ya özəl yataqxana | 20 | | | | |
| | | 25 | | | | |
| yer | Tələbə evi | 134 | | | | |
| | Ailənin yanı | 168 | 3-321 | 11.004 | .000 | Var |
| | Dövlət və ya özəl yataqxana | 20 | | | | |

(*p<.05)

Cədvəl 6 analiz edilən zaman tələbələrin tələbələrin universitet seçiminə təsir edən amillərin tələbənin yaşayış yeri dəyişkəni baxımından statistiki olaraq fərqlilik olduğu görünmüşdür. Belə ki, coğrafi yer ölçüsü istisna olmaqla birinci kursda təhsil alan tələbələrin universitet seçiminə

təsir edən amillərin kampus, prestij, məlumat ölçülərində əhəmiyyətli fərqlilik yaratmadığı müəyyən olunur. Yer ölçüsü üzrə fərqliliyin hansı qruplar arasında olduğunu müəyyənləşdirmək məqsədilə Post Hoc testləri tətbiq olunmuşdur. Testin nəticələrinə görə ailənin yanında qalan tələbələrin tələbə evində qalan tələbələrə nisbətdə yer ölçüsünə yönəlik görüşlərinin daha yüksək olduğu görünmüşdür. Bundan əlavə ailənin yanında qalan tələbələrlə dövlət və ya özəl yataqxanada qalan tələbələrin görüşləri arasında da fərqlilik müşahidə olunmuşdur. Bu fərqliliyin ailənin yanında qalan tələbələrin lehinə olduğu görünmüşdür. Beləliklə, analiz nəticələrinə əsasən ailənin yanında qalan tələbələrin tələbə evində və dövlət və ya özəl yataqxanada qalanlarla nisbətdə yer ölçünə dair düşüncələrinin daha yüksək olduğu qeyd oluna bilər.

## *5. Nəticə və müzakirə*

### *5.1 Nəticə*

Bu tədqiqatda Cənub bölgəsində fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil alan 1-ci kurs tələbələrinin universitet seçiminə təsir edən amillər araşdırılmışdır. Tədqiqatı həyata keçirmək üçün mövcud ədəbiyyat incələnmiş, nəticədə anket sorğusu hazırlanaraq 322 iştirakçı üzərində tətbiq edilmişdir. Əldə olunan nəticələr t-testi və ANOVA testi ilə analiz edilmişdir. Tədqiqatın nəticəsində 1-ci kursda təhsil alan tələbələrin universitet seçiminə ən çox təsir edən əsas faktorun universitetin prestiji olduğu məlum olmuşdur . Yəni bu bölgədə təhsil alan tələbələr oxuduqları universiteti yaşadıqları cəmiyyətdəki akademik nüfuzu, ali təhsil müəssisəslərindəki tədrisin keyfiyyətinə görə seçirlər. Tədqiqatın nəticəsində universitet haqqında məlumatılılıq faktorunun prestij faktorundan sonra tələbələrin seçiminədə təsirli olan faktor olduğu məlum olmuşdur. Belə ki, 1-ci kurs tələbələrinin təhsil aldıqları universiteti seçmələrində universitetin veb səhifəsindən əldə etdiyi məlumatların, həmçinin tələbələnin ailəsinin, orta məktəb müəllimlərinin, dostlarının tövsiyələrivə məsləhətlərinin də oxuduqları ali təhsil müəssisələrini seçmələrinə təsir edir. Aparılan tədqiqatın nəticəsində prestij və

məlumatlılıq faktorlarları ilə müqayisədə daha az təsiri olan faktorların kampus və yer olduğu müəyyənləşdirilmişdir. Bu gün tələbələrin demək olar ki, əksəriyyəti daha çox təmiz, müasir sinif otaqları, laboratoriyalar və s. kimi fiziki imkanları olan, müxtəlif sosial və mədəni fəaliyyətlərlə daim canlı kampuslu universitetlərə üstünlük verirlər. Universitetlərin fiziki, sosial imkanlarının, kampusda müasir infrastukturun az inkişaf etmiş olması tələbələrin seçimində təsirinin yüksək olmamasına səbəb ola bilər. Coğrafi yer faktorunun birinci kurs tələbələrinin seçimində təsirinin digər iki faktorla müqayisədə tələbələrin seçimində təsiri az olmuşdur. Belə ki, universitetlərin yerləşdiyi rayonların iqtisadi şəraiti, ev kirayələrinin qiyməti, universitetlərin yerləşdiyi şəhərlərdən tələbələrin yaşadıqları yerə qədər nəqliyyat imkanlarının məhdudluğu kimi amillər tələbələrin seçimində yer faktorunun təsirinin az olması səbəb ola bilər.

Tədqiqatda demoqrafik baxımdan seçimə təsir edən amillərdəki fərqlər də araşdırılmışdır. Nəticədə tələbələrin universitet seçiminə təsir edən amillərin cinsiyyət dəyişkəni baxımından statistik olaraq fərqlilik olduğu görünməmişdir. Digər bir demoqrafik göstərici olan ailənin aylıq gəliri dəyişkənində isə prestij ölçüsündə statistik olaraq əhəmiyyətli fərqlilik yaratdığı məlum olmuşdur. Bu fərqliliyi müəyyənləşdirmək üçün aparılan testlərin nəticəsində ailəsinin aylıq gəliri 0-500 AZN arası olan tələbələrin, aylıq gəliri 501-1000 AZN arası və 10001-2000 AZN arası olan ailələrdən gələn tələblərlə müqayisədə seçdikləri universitetin prestijinə dair düşüncələri daha yüksək olduğu məlum olmuşdur.

*5.2 Müzakirə*

Tədqiqat nəticəsində 1-ci kursda təhsil alan tələbələrin universitet seçiminə universitet kampusunun təsirinin orta olduğu məlum olmuşdur. Yəni universitet şəhərciyinin fiziki və sosial imkanları, universitet kampusunun təhlükəsizliyi və s. bu kimi amillər tələbənin seçiminə universitet prestiji qədər yüksək təsir göstərmir. Agrey və Lampadan (2014) apardığı tədqiqat bu mənada uyğunluq təşkil edir. Belə ki, bu araşdırmada ümumilikdə 441 nəfər tələbə iştirak etmiş və əldə olunan datanın təhlili universitet seçiminə əhəmiyyətli təsir edən 5 əsas amil ortaya çıxarmışdır. Bu amillər içərisində universitetin fiziki imkanlarının ( universitet binası,

kitabxanalar və s.) və sosial imkanlarının ( əyləncəli tələbə həyatı, idman fəaliyyətləri və s.) orta dərəcədə təsirə malik olmuşdur. Price və digərləri (2013) də tədqiqatlarının nəticəsində yataqxanalar kimi fiziki imkanların mövcudluğunun, universitet kampusunun təhlükəsizliyinin, eyni zamanda kampusunun sosial obyektlərinin müxtəlifliyinin tələbələrin universitet seçiminə universitetin kampusu amilindən sonra təsir edən ikinci əsas amil olduğunu qeyd edirlər. Absher və Crawford (1996) araşdırmalarının nəticəsində məlum olub ki, universitetin kampusunun təqdim etdiyi imkanlar, infrastruktur və sosial obyektlər, günün şərtlərinə cavab verən və hətta onları üstələyən laboratoriya və sinif otaqları kimi fiziki imkanlar, həmçinin geniş və gözəl kampus tələbələrin seçiminə təsir edir.

Yer ölçüsü tələbələrin oxuduqları universiteti seçmələrində orta dərəcədə təsir olduğu məlum olmuşdur. Beynəlxalq təcrübədə aparılan tədqiqatların əksəriyyətində isə tələbələrin universitet seçiminə universitetin yerləşdiyi yerin təsirinin yüksək olduğu müəyyən olunmuşdur. Məsələn, Shank və Beasley (1998), Moogan və Baron (2003), Ming (2010) qeyd edirlər ki, universitet yerləşdiyi yer tələbələrin seçimində təsirli olan əsas faktordur. Bu faktorun təsirli olması yuxarıda adları göstərilən müəlliflər tərəfindən belə əsaslandırılır ki, universitetin insanın yaşadığı coğrafi yerə yaxın olması xərc baxımından qənaət təmin edə bilər. Bu səbəbdən seçimə təsir edən əsas amil hesab oluna bilir.

Tədqiqatda cins, ailənin aylıq gəliri və tələbənin yaşayış yeri kimi demoqrafik amillərin birinci kurs tələbələrinin ali təhsil müəssisəsi seçiminə təsir edən amillərdə statistik olaraq əhəmiyyətli fərqlilik yaradıb yaratmadığı təhlil olunmuşdur. Belə ki, təhlil nəticəsində müəyyənləşdirilmişdir ki, cins faktoru tələbələrin universitet seçimində prestij, kampus, məlumat və yer kimi faktorlar baxımından əhəmiyyətli fərqlilik xüsusiyyətinə malik deyildir. Mövcud ədəbiyyatlar tədqiq olunduğu zaman məlum olur ki, aparılan tədqiqatların böyük əksəriyyətində cins ilə bağlı fərqlər daha çox imkan bərabərliyi kontekstində araşdırılmış və universitet seçimindən daha çox karyera seçiminə yönəlmişdir. Bu baxımından cinsin tələbələrin universitet seçiminə təsir edən amillər

üçün əhəmiyyətli fərqlilik yaradıb yaratmadığını təhlil edən tədqiqatlar da isə əhəmiyyətli fərqlilik əldə olunmamışdır ( Cerit, 2007; Joseph, 2000; Akar, 2012 və s.).

Aparılan tədqiqatda iştirak edən birinci kurs tələbələrinin universitet seçiminə təsir edən "prestij" amilinin ailənin aylıq gəliri dəyişkəni baxımından əhəmiyyətli fərqliliklərin olduğu təhlil nəticəsində məlum olmuşdur. Belə ki, aparılmış təhlil göstərmişdir ki, daha az gəlirli ailələrin ( 0-500 AZN arası) övladları oxuduqları universiteti onun prestijinə görə seçirlər. Bu nəticə Nor (2018) tərəfindən Somali Dövlət Universitetində 201 nəfər tələbənin iştirakı ilə aparılan tədqiqatın nəticəsi ilə uyğunluq təşkil edir. Nəticələrin eyniliyi ondan ibarətdir ki, bu universitetin tələbələrinin seçimində də ailələrin aylıq gəliri prestij amilinə təsir göstərir. Gəlir səviyyəsi aşağı olan tələbələr oxuduqları universitet seçmələrində prestijə üstünlük verirlər, lakin ailələrin aylıq gəlir səviyyəsi yüksək olan tələbələr üçün universitetin prestiji daha orta təsirə malik olur.

Tələbələrin universitet seçiminə təsir edən "yer" amilinin tələbənin yaşadığı yer dəyişkəni baxımından əhəmiyyətli fərqliliklərin olduğu aparılan analiz nəticəsində müəyyən olunmuşdur. Qeyd etmək lazımdır ki, tələbələrin yaşadığı yerin (burada "ailənin yanı" daha yüksək ədədi ortaya malik olmuşdur) "yer" amilində əhəmiyyətli fərqlilik yaratması tələbənin ailəsinin universitetin yerləşdiyi şəhərdə yaşaması və ya universitetin yerləşdiyi şəhərdə qala biləcəyi bir qohumunun olması ilə əsaslandırılır. Belə bir nəticə Türkiyənin Ortaca bölgəsində Gündoğan (2016) tərəfindən aparılan tədqiqatında da öz əksini tapmışdır. Müəllif qeyd edir ki, ailəsi ilə qalan tələbələrin universitetin yerləşdiyi yerə daha çox önəm vermələri təbii bir haldır. Tələbənin yaşayış yerinin universitet seçimində əhəmiyyətli ola biləcək "yer" amilinə təsiri bu mövzuda aparılmış tədqiqatların əksəriyyətində əhəmiyyətli fərqlilik yaratmamışdır ( Fernandez, 2010; Erol, 2012; Aydın, 2015).

*5.3 Tövsiyə*

Cənub bölgəsində fəaliyyət göstərən iki ali təhsil müəssisəsində təhsil alan 1-ci kurs tələbələrinin universitet seçiminə təsir edən amillərin araşdırıldığı tədqiqatın nəticələrinə əsasən

gələcəkdə bu mövzuda araşdırma aparacaq tədqiqatçılara və universitetlərlə bağlı qərar qəbul edənlərə tövsiyələr verilə bilər. Universitet seçiminə təsir edən amillər mövzusunda tədqiqat aparacaq tədqiqatçılara veriləcək tövsiyələr aşağıdakılardan ibarətdir:

- ✓ Bu tədqiqatda yalnız Cənub bölgəsində fəaliyyət göstərən ali təhsil müəssisələrinin tələbələrinin universitet seçiminə təsir edən amilləri araşdırılmışdır. Bu səbəbdən də tədqiqatçılar Azərbaycanın digər bölgələrində, yaxud da Bakıda fəaliyyət göstərən universitetlərin tələbələrinin oxuduqları təhsil müəssisəsini seçmələrinə təsir edən amillərlə bağlı genişmiqyaslı tədqiqat apara bilər.
- ✓ Bu tədqiqat kəmiyyət metodologiyası daxilində istifadə edilən anket sorğuları ilə aparılmışdır. Gələcəkdə bu mövzuda tədqiqat aparacaq araşdırmacılar keyfiyyət metodologiyasından istifadə edib, tələbələrlə müsahibə aparmaqla təhsilalanlara universitet seçimində təsir edən amillərin səbəblərini də müəyyənləşdirə bilərlər.

Universitetlərlə bağlı qərar qəbul edənlərə isə bu mövzuda aşağıdaki tövsiyə verilə bilər:

- ✓ Tədqiqat nəticəsində məlum olmuşdur ki, 1-ci kurs tələbələrinin universitet seçimində təsiri az olan amil kampusdur. Belə ki, universitetlər özlərini təkcə tədris və öyrənmə sahələrində deyil, həm də onunla əlaqəli obyektlər, tədris kampusları kimi digər aspektlərlə də qənaətbəxş şəkildə təchiz etməlidirlər. Bununla da universitetlərlə bağlı qərar qəbul edənlər ali təhsil müəssisələrinin fiziki imkanlarını ( binalar, kitabxanalar və s.), həmçinin sosial imkanlarını da ( tədbirlr, idman fəaliyyətləri və s.) təkmilləşdirə bilərlər. Eyni zamanda universitet kampusunun təhlükəsizliyinin artırılması da tələbələrin bu ali təhsil müəssisələrini seçmələrində təsirli ola bilər.

### *5.4 Məhdudiyyətlər*

Bu tədqiqatda yalnız Cənub bölgəsində fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil alan I kurs tələbələrinin universitet seçiminə təsir edən amillər araşdırılmışdır. Bu səbəbdən də bu tədqiqatdan əldə edilən nəticələr bütöv ölkə miqyasına aid edilə bilmız. Tədqiqatçılar

Azərbaycanın digər bölgələrində, yaxud da Bakıda fəaliyyət göstərən universitetlərin tələbələrinin oxuduqları təhsil müəssisəsini seçmələrinə təsir edən amillərlə bağlı genişmiqyaslı tədqiqat apara bilər.

## *İstinadlar*

Agrey, L. & Lampadan, N. (2014). Determinant factors contributing to student choice in selecting a university. *Journal of Education and Human Development. 3*(2), 391-404

Aguado, C. & digərləri. (2015). Factors affecting the choice of school and students' level of interest towards Maritime programmes. *Asian Journal of Science. 11*(21), 231-239.

Atarah, B. & Paprah, A. (2014). Assessing the influence of advertising on student enrolment in private tertiary institutions in Ghana. *International journal of business and social research. 4*(3), 50-70.

Akar, C. (2012). Universite seçimini etkileyen faktörler: iktisadi ve idari bilimler öğrencileri üzerine bir çalışma. *Eskişehir Osmangazi Üniversitesi İİBF Dergisi, 7*(1), 97-120.

Ancheh, K. & digərləri (2007). Evaluative criteria for selection of private universities and colleges in Malaysia. *Journal of International Management Studies, 2*(1), 1-11.

Aydın, O.T. (2015). University choice process: a literature review on models and factors affecting the process". *Yükseköğretim Dergisi.*

Avram, E. M. (2014). Higher education student choice influencing factors. *Romania-American University. 2(*2), 59-64

Azad, M. & digərləri. (2020). Student university choice in Kurdistan-Iraq: what factors matter?. *Journal of Further and Higher Education. 3*(7), 1-18

Babbie, E. (2010) The practice of social research. *12th Edition,* Wadsworth, Belmont.

Beneke, T. & digərləri. (2010). Student recruitment marketing in South Africa – An exploratory study into the adoption of a relationship orientation. *African Journal of Business Management. 4*(4), 435-447.

Briggs, S. & Wilson, L. (2006). An exploratory study of the factors influencing undergraduate student choice:The case of higher education in Scotland. *Studies in Higher Education, 31*(6),705–722.

Broekemier, G. ( 2002). "A Comparison of Two-year and Four-year Adult Students: Motivations to Attend College and the Importance of Choice Criteria*." Journal of Marketing for Higher Education.12* (1), 31–48.

Bentler, P. M., & C. H. Chou. (1987). "Practical Issues in Structural Modeling." *Sociological Methods and Research,16* (1), 78–117.

Chapman, D. (1981). A model of student college choice. *Journal of Higher Education, 52*(5), 490- 505.

Chapman, R. G. (1986). Toward a theory of college selection: A model of college search and choice behavior. Advances in Consumer Research. *Journal of Higher Education 13*(4), 246–250.

Chaubey D. S., & Joshi S. (2011). "Factors Influencing Student's Choice for Higher Learning: An empirical study". *Indira Management Review Volume, 5*(1), 01-15.

Coşar, M. (2016). Üniversite tercihinde öğrencileri etkileyen faktörler. Eğitim ve Öğretim Araştırmaları Dergisi. 5(1), 1-5

Coccari, R. & R. Javalgi, (1995), "Analysis of students' needs in selecting a college or university in a changing environment". *Journal of Marketing for Higher Education,6 (*2), 27-39.

Chung, C. & digərləri (2011). Online social networks: why do students use facebook? Computers in Human Behavior, *27,* 1337–1343.

Creswell, J. W. (2017). Educational research: Planning, conducting, and evaluating quantitative and qualitative research, *5th ed.* Boston, MA: Pearson.

Çatı, K., İştar, & E. Özcan, H. (2016). Üniversite Tercihlerine Etki Eden Faktörlerin İncelenmesi: Türkiye Genelinde Bir Alan Araştırması. *Yükseköğretim ve Bilim Dergisi, 6*(2), 163-177.

Dövlət Statistika Komitəsi (2023). Ali təhsil müəssisələrinin sayı. https://www.stat.gov.az/source/education/

Dövlət İmtahan Mərkəzi (2023). Ali təhsil müəssisələrinə qəbulun nəticələrinə dair bəzi statistik məlumatlar. https://www.dim.gov.az/news/11707/

Domino, S., Libraire, T., Lutwiller, D., Superczynski, S. & Tian, R. (2006). Higher education marketing concerns: factors influence students' choice of colleges. *The Business Review, Cambridge, 6(* 2), 101-111.

Dahari, Z., & Abduh, M. (2011). Factors influencing international students' choice towards universities in Malaysia. *African Journal of Business Management, 5*(26), 10615-10620.

Das, K. (2016). A brief review of tests of normality. *American Journal of Theoretical and* Applied Statistics 5 (1). 5-12

Echchabi, A., & Al-Hajri, S. (2018). Factors Influencing Students' Selection Of Universities: The Case Of  Oman. *Journal Of Education Research And Evaluation, 2*(2), 83.

Erol, A. (2012). Üniversite öğrencilerinin üniversite tercihlerinin belirleyicileri:Hakkari örneği.

*Sosyal ve Beşeri Bilimler Dergisi. 4*(2), 1-10

Fernandez, J. L. (2010). An exploratory study of factors influencing students' college decision in Malaysia: A conceptual framework. *International Journal of Business and Social Science, 1(*3), 53-58.

Galotti. K. M., & Mark, M. C (1994). How do high school students structure an important life decision? *Research in Higher Education, 35*(5), 589 – 607

Gill, T., C. V. Rodeiro, & N. Zanini. 2018. "Higher Education Choices of Secondary School Graduates with a Science, Technology, Engineering or Mathematics (STEM) Background." *Journal of Further and Higher Education, 42* (7), 98–1014.

Hoyt, J. E., & A . B. Brown. 2003. "Identifying College Choice Factors to Successfully Market Your Institution." *College and University 78* (4), 3–10.

Hossler, D., Schmit, J., & Vesper, N. (1999).Going to college: How social, economic, and educational factors influence the decisions students make. *London: Johns Hopkins University Press*.

Hooley, G. J., & Lynch, J. E. (1981). Modelling the student university choice process through the use of conjoint measurement techniques. *European Research, 9*(4), 158-170.

İsmail, N. (2009). Mediating effect of information satisfaction on college choice. *Paper presented in Oxford Business & Economics Conference Program*.

İlgan, A. (2018). Factors affecting university choice: a study on university freshman students. *The journal of Buca Faculty of Education. 46*, 199-216.

Jafari P. & Aliesmaili A. (2013), “Factors Influencing the Selection of a University by High School Students”, *Journal of Basic and Applied Scientific Research, 3*(1), 696-703. Joseph, M., & Joseph, B. (2000), Indonesian students’ perceptions of choice criteria in the selection of a tertiary ınstitution: strategic ımplications. *The International Journal of Educational Management, 14*(1), 40-44.

Jackson, G. A. 1982. “Public Efficiency and Private Choice in Higher Education.” *Educational Evaluation and Policy Analysis,4* (2), 237–247.

Johnston, T. (2010). Who and what influences choice of university? Student and university perceptions. *American Journal of Business Education, 3*(10), 15-23.

Kallio, R. E. 1995. “Factors Influencing the College Choice Decisions of Graduate Students.” *Research in Higher Education,36* (1), 109–124.

Kalpaklıoğlu, N. Ü. & Türemez, Y. (2010), Üniversite Adaylarının Vakıf Üniversitesi Tercihlerinde Halkla İlişkiler Çalışmalarının Etkisi, *AMBYO Dergisi, 17*, 47-58

Krampf, R. F., & Heinlein, A. C. (1981). Developing marketing strategies and tactics in higher education through target market research, Decision Sciences, *12,* 175-192

Keling, S. B. A. (2006). Institutional factors attracting students to Malaysian institutions of higher learning. *International Review of Business Research Papers, 2*(1), 46-64.

Keling, S. B., A. Krishnan, A. & O. Nurtjahja. (2007). “Evaluative criteria for selection of private universities and colleges in Malaysia”. *Journal of International Management Studies, 2*(1), 1-11.

Kusumawati, A., V. K. Yanamandram, & N. Perera. (2010). "Exploring Student Choice Criteria for Selecting an Indonesian Public University: A Preliminary Finding. ANZMAC 2010 Doctoral Colloquium." *3*, 1–27. Christchurch, New Zealand

Kotler, P., & Keller, K. L. (2003). Marketing management12e . *Upper Saddle River, NJ: Pearson Prentice Hall.*

Kurnaz, A. (2019). Üniversite seçimini etkileyen faktörler: aşçılık ve gastronomi öğrencileri üzerine bir araştırma. *Manas Sosyal Araştırmalar Dergisi. 8*(1), 612-627.

Khoi, B. H. (2019). Empirical study on the university choice in Vietnam. *Journal of Advanced Research in Dynamical and Control Systems. 11*(08), 1410-1417

Litten, L. H. (1982). Different strokes in the applicant pool: Some refinements in a model of student college choice. *The Journal of Higher Education, 53*(4), 383–402.

Maniu, İ. və Maniu, G. C. (2014). Educational marketing: factors influencing the selection of a university. "*Lucian Blaga" University of Sibiu. 3*(5), 37-42

Maringe, F. (2006). University and course choice: Implications for positioning, recruitment and marketing. *International Journal of Educational Management, 20*(6), 466 – 479

Manoku, E. (2019). Factors that influence university choice of Albanian students. *European Scientific Journal. 11*(16), 253-270

Ming, J. & Kee, S. (2010). Institutional Factors Influencing Students' College Choice Decision in Malaysia: A Conceptual Framework. *International Journal of Business and Social Science, 1*(3), 53-58.

Moogan, Y. J., & Baron, S. (2003). An analysis of student characteristics within the student decision making process. *Journal of Further and Higher Education, 27*(3), 271–287.

Migin M. W., Falahat M., Yajid M. S. A. & K hatibi A. (2015), "Impacts of Institutional Characteristics on International Students' Choice of Private Higher Education Institutions in Malaysia*", Canadian Center of Science and Education. Higher Education Studies,*5 (1), 31- 4 42.

Neil B. (2013), "College choice: factors influencing high school seniors' decision to enroll at private colleges in South Carolina", *All Dissertations*

Obermeit, K. (2012), "Students' choice of universities in Germany: structure, factors and information sources used", *Journal of Marketing for Higher Education, 22*( 2), 206-230

Osinevic, L. M. (2018). Исследование фокторов, влияющих на выбор учебного заведения и специальности экономической направленности. *Курский филиал Финансовог Университета при правительстве РФ. 265-268*

Özdamar, K. (2002). "Paket Programlarla İstatistiksel Veri Analizi", *Kaan Kitabevi, Eskişehir.*

Perna, L. W. (2006). Studying college access and choice: A proposed conceptual model. In J. Smart (Ed.), Higher education: Handbook of theory and research. 21, 99–157.

Price, I., F. Matzdorf, L. Smith, & H. Agahi. 2003. "The Impact of Facilities on Student Choice of University." *Facilities 21* (10), 212–222

Plano, C. V. L., & J. W. Creswell. 2015. Understanding Research: A Consumer's Guide. *Upper Saddle River, NJ: Pearson.*

Rudhumbu, N. (2017). Factors that influence undergraduate students choice of a university: A case of Botho University in Botswana. *International Journal of Learning and Development.* *7*(2), 27-3

Rowan-Kenyon, H. T., Bell, A. D., & Perna, L. W. (2008). Contextual influences on parental involvement in college going: Variations by socioeconomic class. *The Journal of Higher Education, 79*(5), 564–586.

Soutar, G.N. & Turner, J.P. (2002), "Students' preferences for university: a conjoint analysis", *The International Journal of Educational Management, 16*( 1), 40-5.

Shanka T., Quintal, V., & Taylor, R. (2006). Factors Influencing International Students' Choice of an Education Destination–A Correspondence Analysis. *Journal of Marketing for Higher Education, 15(*2), 31-46

Şahbazov, İ. (2019). Tədqiqat metodları. *TEAS Press Nəşriyyat evi*

Tamtekin, O. (2015). University choice process: a literature review on models and factors affecting the process". *Yükseköğretim Dergisi.*

Veloutsou, C., Lewis, J. W., & Pton, R. A. (2005). Consultation and reliability of information sources pertaining to university selection: some questions answered?, *International Journal of Educational Management, 19*(4), 279-291

Yamamoto, G. T. (2006) - University evaluation-selection: a Turkish case. *The International Journal of Educational Management, 20*(7), 559-569.

Wilkins,S., Balakrishnan, M.S., & Huisman, J. (2011). Student Choice in Higher Education: Motivations for choosing to Study at an International Branch Campus. *Journal of Studies in International Education, 16*(5), 413–433.

**6. Əlavələr**

7 Əlavə A: Tədqiqat aparmaq üçün əldə edilən icazə məktubları

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

# LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

AZ4200, Azərbaycan Respublikası, Lənkəran şəhəri, General Həzi Aslanov xiyabanı, 50

Tel.: (+994) 025 255 25 88, faks: (+994) 025 255 27 86
www.lsu.edu.az; office@lsu.edu.az

№ 2/88 06 mart 2024-cü il

**Azərbaycan Diplomatik Akademiyasının**
**akademik işlər üzrə prorektoru**
**Dr. Elkin Nurməmmədova**

**Hörmətli Elkin müəllim,**

Sizin 09 fevral 2024-cü il tarixli 09/5088-24 saylı məktubunuza cavab olaraq bildiririk ki, Xanım Rövşən qızı Lətifovaya magistr proqramı çərçivəsində "Ali təhsil müəssisələrində təhsil alan 1-ci kurs tələbələrinin universitet seçiminə təsir edən amillər: Cənub bölgəsi nümunəsi" mövzusunda apardığı tədqiqat işi ilə əlaqədar LDU-nun I tədris ili tələbələri ilə sorğu keçirməsinə etiraz etmirik.

**Hörmətlə,**
**Tədrisin təşkili və təlim texnologiyaları**
**üzrə prorektor vəzifəsini icra edən** **dos. Zaur Məmmədov**

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı**

**№** 25 "11" mart **2024-cü il**

ADA Universitetinin
Akademik İşlər üzrə prorektoru
Dr. E.Nurməmmədova

**Hörmətli Elkin müəllim!**

09 fevral 2024-cü il tarixli 09/5100-24 nömrəli məktubunuzla əlaqədar ADA-da magistr proqramı üzrə təhsil alan I tədris ilinin tələbəsi Lətifova Xanım Rövşən qızının Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialında tədqiqat işi aparması üçün lazım olan normal şəraitin yaradılması nəzərdə tutulmuşdur.

Tələbənin göndərilməsini Sizdən xahiş edirik.

Əməkdaşlığa görə təşəkkürümüzü bildiririk.

Hörmətlə;

ADPU Cəlilabad filialının direktoru: ________ dos.X.H.Sultanlı

**AZ-1500 Cəlilabad şəhəri, M.Hüseyn küçəsi.20 Tel: (+994) 2524 5-51-72 Faks: (+994) 2524 5-51-72**
adpu_celilabad@mail.ru

8. Əlavə B: İstifadə edilən data toplama aləti

| **Prestij** | **Yer** | **Kampus** | **Məlumat** |
|---|---|---|---|
| 1.Universitetdəki professor-müəllim heyətinin adı ve keçmiş fəaliyyəti | 7. Universitetin yerləşdiyi şəhəri yaşamaq üçün əlverişli hesab etməyim | 13. Universitet şəhərciyinin fiziki imkanları (bina, kitabxana və s.) | 18. Ailəmin məsləhət və təklifləri |
| 2. Universitetə qəbuldakı keçid balı | 8. Universitetin yerləşdiyi şəhərdə məzun olduqdan sonra iş imkanlarının çoxluğu | 14. Universitet şəhərciyinin sosial obyektləri ( idman, əyləncə və s.) | 19. Dostlarımın tövsiyələri |
| 3. Universitetin cəmiyyətdəki akademik nüfuzu | 9. Universitetin yerləşdiyi şəhərdən ailəmin yaşadığı yerə qədər mövcud nəqliyyat imkanları | 15. Universitet kampusunun təhlükəsizliyi | 20. Universitet haqqında jurnallarda,qəzetlərdə və ya internetdə oxuduğum məlumatlar |
| 4. Universitetin brend olaraq adı | 10. Ailəmin universitetin yerləşdiyi şəhərdə yaşaması və ya universitetin yerləşdiyi şəhərdə qala biləcəyim bir qohumumun olması | 16. Universitet kampusunun şəhər mərkəzinə yaxınlığı | 21. Universitetin veb səhifəsindən əldə etdiyim məlumatlar |
| 5. Universitetdə tədrisin keyfiyyəti | 11. Universitetin yerləşdiyi şəhərin iqtisadi cəhətdən ucuz yaşayış şəraitinin olması | 17. Universitet şəhərciyi daxilində yataqxanalar kimi yaşayış imkanlarının olması | 22. Orta məktəb və ya fərdi hazırlıq müəllimlərimin təklif və tövsiyələri |
| 6. Universitetin məzunlarının iş | 12. Universitetin yerləşdiyi şəhərdə | | |

| | | | |
|---|---|---|---|
| tapmaq imkanları | ev kirayələrinin ucuz olması | | |